HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

№ 42 (782) ■ 28 oktyabr 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

# Prezident İlham Əliyev: «Azərbaycanın çox güclü sənaye potensialı mövcuddur»

*Oktyabrın 25-də Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisində «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki avadanlıqlar zavodunun açılışında iştirak edib. Sənaye Parkında görülən işlərlə bağlı dövlət başçısına bildirilib ki, ölkəmizdə həyata keçirilən genişmiqyaslı sənayeləşmə strategiyasının əsas istiqamətlərindən biri də sənaye mərkəzlərinin yaradılmasıdır.*



Sənaye parkları yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın müxtəlif sahələrinin daha sürətlə inkişaf etdirilməsinə təkan verir. Bu baxımdan, Prezident İlham Əliyevin iştirakı ilə 2013-cü ildə təməli qoyulan Sumqayıt Kimya Sənaye Parkı xüsusi əhəmiyyət kəsb edir. Park Sumqayıt şəhərində əvvəllər ekoloji fəlakət zonası hesab olunan 296 hektar sahədə yaradılıb. Parkın yaradılmasının əsas məqsədləri ölkədə innovasiyalı və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait formalaşdırmaq, bu sahə üzrə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır. Sənaye zonasında 40-dək müəssisənin yerləşdirilməsi nəzərdə tutulur. Burada 10 minə qədər daimi iş yerinin açılması gözlənilir. İnvestisiya cəlbediciliyinin artırılması məqsədilə parkın rezidentləri 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən, eyni zamanda, buraya gətirilən texnika və texnoloji avadanlıqlar əlavə dəyər vergisindən azad olunub.

Sumqayıt Kimya Sənaye Parkında «bir pəncərə» sistemi tətbiq edilib. Burada artıq dörd rezident qeydiyyata alınıb. Parkın ərazisində ilk sərmayəçi olan «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin artıq bir neçə zavodu fəaliyyət göstərir. Zavodların keyfiyyət siyasətinin əsasını «müştəri məmnuniyyəti» təşkil edir. Bu hədəfə əsaslanaraq müştərilərə yüksək standartlara uyğun keyfiyyətli məhsullar təqdim edilir. Bunun nəticəsidir ki, ABŞ-ın Neft İnstitutu tərəfindən «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinə beynəlxalq keyfiyyət sertifikatı verilib. Kimya Sənaye Parkında şirkətin üç zavodu fəaliyyət göstərir. «Azertexnolayn»ın əsas istehsal sahələrindən biri polad borular zavodudur ki, burada təyinatı üzrə beynəlxalq standartlara cavab verən keyfiyyətli spiral tikişli polad borular istehsal olunur. Zavodda polad boru istehsalı üzrə üç xətt qurulub. Bu xətlərin hər birinin illik istehsal gücü 200 min tondur. Şirkətin digər bir müəssisəsi isə mexaniki məhsullar zavodudur. Burada, əsasən, polad armaturlu borular, metal hasar və plastik birləşdirici hissələr istehsal olunur. Artıq «Azertexnolayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki avadanlıqlar zavodu da istehsala tam hazırdır.

Sonra dövlətimizin başçısı zavodu işə salıb. Prezident İlham Əliyevə müəssisənin iqtisadi-texniki göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, zavodda metaltökmə və emal sahələri fəaliyyət göstərir. Metaltökmə sahəsində ən müasir standartlar səviyyəsində qurulan və saatda 10 ton metaləritmə gücünə malik olan iki soba, saatda 50 qəlib hazırlama gücünə malik avtomatik qəlibləmə sistemi və avtomatik qumhazırlama xətti var. Burada beynəlxalq təcrübəyə malik yerli mühəndislər tərəfindən dizayn olunmuş qaz və su siyirtmələri, dairəvi siyirtmə, yanğın hidrantı, təkkürəli və cütkürəli hava təxliyyə vantuzu, menhol sistemi, siyirtmə qovşağı, müxtəlif növ quyu qapaqları kimi məhsulların istehsalı həyata keçiriləcək. Müəssisədə ildə 6500 ton müxtəlif diametrli və yüksək təzyiqə davamlı hidrotexniki avadanlıq istehsal ediləcək. Zavodda üçnövbəli iş rejimində 250 nəfər işlə təmin olunacaq. Burada istehsal edilən məhsullar əsasən daxili bazarda tələbatın ödənilməsinə yönəldiləcək. Zavodun məhsulları, həmçinin, xaricə, o cümlədən Türkiyəyə, MDB dövlətlərinə və digər ölkələrə ixrac olunacaq. Dövlətimizin başçısı «Azərikimya» İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimində iştirak edib. Bildirilib ki, son beş ildə zavodun enerji sistemində aparılan əsaslı təmir və yenidənqurma işləri nəticəsində istehsalatın elektrik enerjisi ilə fasiləsiz və etibarlı təchizatına imkan yaranıb, elektrik enerjisi, buxar və qaz itkilərinin qarşısı alınıb. Bu isə istehsal edilən əmtəəlik məhsullarda enerji daşıyıcılarının xüsusi çəkisinin əhəmiyyətli dərəcədə azalması və maya dəyərinin minimuma enməsinə səbəb olub. 2013-cü ildə istismara verilən azot-oksigen kompleksi zavodun və təmir-tikinti idarəsinin azot - oksigenə olan tələbatını tam həcmdə ödəməyə imkan yaradıb. 1987-ci ildən istismar olunan köhnə qurğunun əvəzində yeni azot-oksigen kompleksində innovasiyalı texnologiyaların tətbiqi sayəsində minimum enerji sərfiyyatına malik müasir avadanlıq quraşdırılıb. Yeni kompleksin bütün sistemləri avtomatik idarə edilir.

Zavodda istismara verilmiş yeni qurğulardan biri də mütləqləşdirilmiş izopropil spirti sahəsidir. 2010-cu ildən başlayaraq «Azərikimya» İstehsalat Birliyində zəhərli və zərərli, müasir standartlara cavab verməyən, iqtisadi cəhətdən qeyri-səmərəli və əsasən, ətraf mühitin ekologiyasına mənfi təsir göstərən istehsalatlar sökülərək yenidən qurulub. Çirklənmiş ərazilərdən külli miqdarda zəhərli maddə və kimyəvi tullantı utilləşdirilib. Təmizlənmiş ərazilərdə müasir tipli, ekoloji normalara uyğun yeni istehsal sahələrinin tikintisi aparılır.

Ulu öndər Heydər Əliyev 1998-ci ildə Yaponiyaya səfəri zamanı müstəqil Azərbaycanın tarixində ilk dəfə buxar-generator kompleksinin alınmasına nail olunub ki, bu da ölkənin neft-kimya sənayesinin inkişafı tarixinə dahi rəhbərin ən böyük xidmətlərindən biri kimi yazıldı. Ümummilli lider 1999-cu ildə bu kompleksin təməlqoyma mərasimində, 2001-ci ildə isə açılışında iştirak edib. Bu kompleks nəinki kimya sənayesini tənəzzüldən xilas etdi, hətta «Azərikimya»nın bu günü üçün etibarlı enerji təminatının yaradılmasında mühüm vasitə olub.

Diqqəti cəlb edən layihələrdən biri də gündəlik gücü 2600 kubmetr olan yeni istehsalat tullantı sularının təmizlənməsi qurğusunun tikintisidir. 2016-cı ildə istifadəyə veriləcək bu qurğunun inşa edilməsinin əsas məqsədi Xəzər dənizinə atılan suların maksimal təmizlik həddinin təmin edilməsi və təmizlənmiş suyun irriqasiya məqsədlərində istifadə olunmasıdır.

Sonra dövlətimizin başçısı zavodun kollektivi ilə görüşüb. Prezident İlham Əliyev bildirib ki, Sumqayıt Azərbaycanın böyük sənaye mərkəzinə çevrilib: «Bu gün Sumqayıtda yeni müəssisələr, güclü sənaye potensialı yaradılır, iş yerləri açılır. Bu gün bir yeni zavodun açılışında, bir böyük zavodun təməlqoyma mərasimində iştirak etmişəm. Hər iki zavod Azərbaycanın sənaye potensialının inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. «SOCAR Polymer» zavoduna 750 milyon dollar sərmayə qoyulacaqdır və bu sərmayə öz növbəsində, yeni iş yerlərinin açılmasına, yeni sənaye sahələrinin yaradılmasına gətirib çıxaracaqdır. Bu, çox böyük investisiya layihəsidir və əminəm ki, vaxtında icra ediləcək. Beləliklə, Azərbaycanda çox güclü sənaye potensialının inkişaf etdirilməsində növbəti önəmli addım atılacaqdır».

Dövlətimizin başçısı ölkəmizdə yeni sənaye müəssisələrinin yaradılması, azad biznesin inkişafı və sahibkarlıq sahəsində şəffaflığın təmin edilməsi, iqtisadi islahatların davam etdirilməsi və digər məsələlər barədə də danışıb.

## RƏSMİ XRONİKA

### Əməkdaşlıq yüksək səviyyədə inkişaf edir

Prezident İlham Əliyev oktyabrın 26-da Yaponiyanın iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə naziri, iqtisadi və maliyyə siyasəti üzrə dövlət naziri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı nümayəndə heyətinin ölkəmizə səfərinin bu əlaqələrin inkişafı istiqamətində yeni addım olacağına və əməkdaşlıqla bağlı imkanların araşdırılması baxımından yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirib. Yaponiya şirkətlərinin ölkəmizdə uzun illər çox uğurla fəaliyyət göstərmələrinin, xüsusilə energetika sektoruna böyük sərmayələr yatırılmasının və eyni zamanda, Yaponiya kreditləri hesabına Azərbaycanda bir çox mühüm layihələrin icra olunmasının əhəmiyyətini vurğulayıb.

Akira Amari Prezident İlham Əliyev ilə sonuncu dəfə 2006-cı ilin martında dövlətimizin başçısının Yaponiyaya səfəri zamanı görüşdüyünü məmnunluqla xatırladıb. O, Yaponiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri kimi özünün ölkəmizə 11 il əvvəl səfər etdiyini və ötən dövr ərzində sanki yeni bir şəhərə düşdüyünü vurğulayıb, bütün bu nailiyyətləri Prezident İlham Əliyevin uğurlu rəhbərliyinin nəticəsi kimi dəyərləndirib.

### Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 23-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə yeni təyin olunmuş vitse-prezidenti Siril Müllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanda həyata keçirilən inkişaf proseslərinin bundan sonra yeni formatda davam etdiriləcəyini bildirib, qeyd edib ki, ölkədə həyata keçirilən uğurlu enerji siyasəti nəticəsində əldə edilən gəlirlərdən məqsədyönlü şəkildə istifadə olunmaqla infrastrukturun yaradılması, biznes imkanlarının genişləndirilməsi, yeni iş yerlərinin açılması, yerli istehsalın artırılması və digər istiqamətlərdə mühüm işlər görülüb.

Azərbaycanın hazırda inkişafın yeni mərhələsində olduğunu vurğulayan dövlətimizin başçısı bu mərhələdə ölkəmizdə biznes mühitinin daha da yaxşılaşdırılması üçün institusional islahatların aparılmasının və sahibkarlığın stimullaşdırılmasının vacibliyini qeyd edib. İqtisadiyyatın neftdən asılılığının azaldılmasının zəruriliyini bildirən Prezident İlham Əliyev hazırda ümumi daxili məhsulun 70 faizinin qeyri-neft sektorunun payına düşdüyünü vurğulayıb. İxracın 90 faizinin enerji sektoruna aid olduğunu deyən dövlətimizin başçısı bunu indiyə qədər qeyri-neft sektorunda istehsal edilən məhsulların daxili bazara hesablanması ilə əlaqələndirərək bildirib ki, növbəti mərhələdə ixracyönümlü istehsala önəm veriləcək.

Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ BEYLƏQANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB 2
VERGİLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB 2
VERGİ YENİLİKLƏRİ: VERGİLƏR NAZİRLİYİNİN İŞİNDƏ NƏ DƏYİŞƏCƏK? 3
İNSAN RESURSLARININ İNKİŞAFI: FRANSANIN TƏCRÜBƏSİNDƏN MARAQLI MƏQAMLAR 5

# Vergilər naziri Beyləqanda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə köməklik göstərirlər.

Oktyabr ayının 23-də vergilər naziri Fazil Məmmədov Beyləqan şəhərində Beyləqan, Ağcabədi, İmişli, Füzuli və Laçın rayonlarından olan vətəndaşları qəbul etmişdir. Qəbulda vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, POS-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gələnən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılmışdır.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan məmnunluqlarını bildirmişlər.

# Vergi Apelyasiya Şurasında vergi ödəyicisinin şikayəti təmin edilib

Vergi Apelyasiya Şurasında fiziki şəxs Sadıqov Anar Telman oğlunun Vergilər Nazirliyinə ünvanlanmış ödəmə mənbəyində tutulan vergi üzrə kameral qaydada hesablanmış əlavə verginin ləğv edilməsi barədə təkrar şikayətinə baxılmışdır.

Bakı Vergilər Departamenti tərəfindən aparılmış kameral yoxlama zamanı vergi ödəyicisinin 2012-ci ilin 4-cü rübü üçün ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin təqdim etmədiyi aşkarlanmış, bununla əlaqədar vergi ödəyicisinə «Kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin (məlumatların) tələb edilməsi haqqında» məktub göndərilmiş, lakin vergi ödəyicisi tərəfindən qeyd olunan müddət ərzində müvafiq təsdiqedici sənədlər, yazılı izahat məktubu və cari bəyannamə vergi orqanına təqdim olunmadığından, ona Vergi Məcəlləsinin 37-ci, 67-ci və 83-cü maddələrinə əsasən ödəmə mənbəyində tutulan vergi üzrə əlavə vergi hesablanmışdır.

Vergi ödəyicisinin kameral qaydada hesablanmış əlavə vergi məbləğinin azaldılması barədə vergi orqanlarına ünvanlandığı müraciətlərin araşdırılması nəticəsində müəyyən edilmişdir ki, Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində qeydiyyatda olan fiziki şəxs Anar Sadıqov sahibkarlıq fəaliyyətini həyata keçirdiyi «MEGAFUN» Ticarət və Biznes Mərkəzinin 2-ci mərtəbəsində yerləşən «Cafe Yellow Eggs» adlı ictimai iaşə obyektini Babək Babayev adlı şəxslə bağlanmış 28 sentyabr 2012-ci il tarixli icarə müqaviləsi əsasında icarəyə götürmüş və həmin ilin dekabr ayının 3-də vergi orqanında uçota qoymuşdur.

A.Sadıqov fəaliyyətinə 2013-cü ilin yanvar ayından başlasa da, bağlanmış icarə müqaviləsinin şərtləri, o cümlədən icarəçinin əvvəlcədən 2 aylıq ödəniş məbləği həyata keçirməsi, icarə haqqının hesablanmağa başlanma tarixini nəzərdə tutan «Təhvil-təslim aktı»nın onda olan surətini itirdiyindən və icarə haqqını ödəmədiyi barədə təsdiqedici sənədləri təqdim etmədiyindən, vergi orqanı ona 2012-ci ilin 4-cü rübü üçün ödəmə mənbəyində tutulan vergi üzrə əlavə vergi hesablamışdır.

A.Sadıqov araşdırmaya təqdim etdiyi izahatında satış dövriyyəsi (gəliri) aşağı olduğundan icarə müqaviləsinin şərtlərinə vaxtında əməl edə bilmədiyini, icarə haqqını gecikmə ilə ödədiyini, 2 aylıq ödəniş məbləğinin gələcək dövrlər üçün əvvəlcədən ödəniş haqqı olduğunu, fəaliyyətinə 2013-cü ilin yanvarından başladığını bildirmişdir.

Vergi ödəyicisinin Bakı Vergilər Departamentinə və Vergilər Nazirliyinə ünvanladığı şikayətləri mövcud sənədlər əsasında əsassız hesab olunmuş və «İnzibati şikayətin təmin edilməməsi haqqında» qərar qəbul edilmişdir.

Vergi Apelyasiya Şurasının iclasında vergi ödəyicisinin təkrar şikayətinə onun özünün iştirakı ilə baxılmışdır. Şikayəti araşdıran Vergi Apelyasiya Şurası işin faktiki hallarnı, gətirilmiş dəlilləri, toplanmış materialları və sübutları bir daha nəzərdən keçirərək, ödəmə mənbəyində tutulan vergi üçün kameral hesablamaya əsas olan ödənişin edilməsinin təsdiq olunmadığını, icarə müqaviləsinə əsasən obyektin 2012-ci ilin sentyabr ayında icarəyə götürülməsinə baxmayaraq, 2013-cü ilin yanvar ayınadək təmir edildiyini, həmin müddət ərzində obyektin işləməsini təsdiq edən sübutların olmadığını, 2012-ci ilin sentyabr ayında edilən ödənişin 2013-cü ilin yanvar və 2015-ci ilin dekabr aylarının icarə haqqı üçün depozit məbləği olduğunu, ödənişin 2012-ci ilin 4-cü rübü üçün edildiyini təsdiqləyən sənədin olmadığını nəzərə alaraq, əlavə hesablanmış verginin ləğv edilməsi və şikayət ərizəsinin təmin edilməsi barədə qərar çıxarmışdır.

# ...əsassız şikayət isə təmin olunmayıb

Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasında fiziki şəxs Tofiq Qaçay oğlu Rüstəmovun gəlir vergisi üzrə kameral qaydada hesablanmış əlavə verginin ləğv edilməsi barədə təkrar şikayətinə baxılmışdır.

T.Rüstəmov Vergilər Nazirliyinə ünvanladığı şikayətində Bakı Vergilər Departamenti tərəfindən ona məxsus mənzilin satılması ilə əlaqədar gəlir vergisi hesablandığını bildirmiş və bu qərarı düzgün hesab etməyərək kameral qaydada hesablanmış verginin ləğv olunmasını xahiş etmişdi. Araşdırma zamanı məlum olmuşdur ki, Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində qeydiyyatda olan fiziki şəxs T.Rüstəmov 21 fevral 2013-cü il tarixdə 78.370 manata aldığı mənzili həmin il oktyabr ayının 31-də 117.675 manata satmış, lakin 2013-cü ilin müvafiq dövrü üzrə vergi bəyannaməsini vergi orqanlarına təqdim etməmişdir.

Hesabat dövrü üzrə vergilərin hesablanmasında kənarlaşma yarandığından, Bakı Vergilər Departamenti tərəfindən vergi ödəyicisinə «Kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin (məlumatların) tələb edilməsi haqqında» uyğunsuzluq məktubu göndərilmişdir. Məktubda göstərilən müddət ərzində vergi ödəyicisi əsaslandırılmış izahat məktubu və ya vergi bəyannaməsi təqdim etmədiyindən, departament tərəfindən vergi hesablanaraq bu barədə qərar vergi ödəyicisinə göndərilmişdir.

T.Rüstəmovun hesablanmış əlavə vergi məbləğinin ləğv edilməsi barədə şikayətləri Bakı Vergilər Departamenti və Vergilər Nazirliyi tərəfindən təmin edilməmişdir. Apelyasiya Şurasında aparılmış araşdırmalara əsasən, vergi ödəyicisinin təkrar şikayətində və vergi orqanına təqdim edilən izahatında, həmçinin şuranın iclasında öz mövqeyini sübut etmək üçün heç bir tutarlı əsas gətirmədiyi, notariat kontorundan əldə edilən məlumatlara əsasən alqı-satqı sənədində daşınmaz əmlakın rəsmi olaraq 78.370 manata alındığı, həmin əmlakın 117.675 manata satıldığı, mənzil alınarkən 22.000 manat beh verilməsi ilə bağlı təsdiqedici sənədlərin araşdırmaya təqdim olunmadığı, habelə vergi ödəyicisi tərəfindən əldə edilmiş gəlirin Vergi Məcəlləsinin 99.3.6-cı maddəsinin tələblərinə uyğun olaraq fiziki şəxsin qeyri-sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlərə aid olduğu təsdiqlənmişdir.

Apelyasiya Şurası kameral vergi yoxlaması zamanı Vergi Məcəlləsinin tələblərinin pozulması hallarına yol verilmədiyini, vergi məbləğinin düzgün hesablandığını, vergi qanunvericiliyi ilə bağlı şəxsin təqsirini istisna edən halların olmadığını müəyyən etmişdir.

İşin faktiki halları, toplanmış materiallar, gətirilmiş dəlillər əsas götürülməklə və qanunvericiliyin tələbləri rəhbər tutulmaqla, Vergi Apelyasiya Şurası Tofiq Qaçay oğlu Rüstəmovun təkrar şikayətinin təmin edilməməsi haqqında qərar çıxarmışdır.

# Vergilər Nazirliyində kollegiya iclası keçirilib

*Vergilər Nazirliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayında sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrlə bağlı iclasında Vergilər Nazirliyinin qarşısında qoyulmuş tapşırıqlara həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclasda çıxış edən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafının 2015-ci ildə də davam etdiyini, bu inkişafın stimullaşdırılması üçün büdcə-vergi mexanizmlərindən fəal istifadə olunduğunu nəzərə çatdırmışdır.*

Bildirilmişdir ki, 2015-ci ilin 9 ayında Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 5 milyard 94,2 milyon manat vəsaitin toplanması təmin edilməklə müəyyən olunmuş proqnoza 100,5 faiz əməl edilmişdir. Ölkədə neft-qaz gəlirlərindən asılılığın ilbəil azaldılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmaları 3 milyard 488 milyon manat təşkil etmişdir ki, bu da proqnozun 100,8 faiz icra olunması ilə yanaşı, ötən ilin müvafiq dövrü ilə müqayisədə 358 milyon manat və ya 11,4 faiz artıq vəsaitin dövlət büdcəsinə səfərbər edilməsi deməkdir.

Vergi orqanlarında həyata keçirilən islahatlara toxunan nazir cari ildə vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirildiyini, vergi daxilolmaları üzrə proqnozların uğurla icra olunduğunu bildirmişdir.

Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayında sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında cənab İlham Əliyevin çıxışı barədə ətraflı məlumat verən Fazil Məmmədov bildirmişdir ki, dövlət başçısı ölkədə yaranmış yeni iqtisadi vəziyyətdə vergi orqanlarının əsas vəzifələri kimi onların daha şəffaf və səmərəli işləməsini, əlverişli biznes mühitinin formalaşdırılmasını, dövlət büdcəsinin gəlirlərinin artırılmasının təmin edilməsi üçün vergi potensialının düzgün müəyyənləşdirilməsini və yeni mənbələrin aşkar olunaraq vergi bazasının genişləndirilməsini, vergilərin tam həcmdə və vaxtında ödənilməsini, büdcənin cari xərclərinin vergi və gömrük orqanlarının xətti ilə daxilolmalar hesabına təmin olunmasını müəyyən etmişdir.

Bildirilmişdir ki, dövlət başçısının da qeyd etdiyi kimi, ölkə iqtisadiyyatının gələcək inkişafı qeyri-neft sektorunun, o cümlədən kiçik və orta biznesin inkişafından asılıdır. Vergilərin ödənilməsinin hər kəsin konstitusion vəzifəsi olduğunu, sahibkarlıq subyektlərinin öz vergi öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirməsinin vacibliyini vurğulayan nazir vergi orqanlarının sərt nəzarət sistemi ilə sahibkarların fəaliyyətinə yersiz müdaxilələr arasında sərhədlərin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etmişdir. Hər bir vergi ödəyicisinin dövlət büdcəsinin təmin edilməsində rol oynadığını bildirən vergilər naziri, ilk növbədə, lüzumsuz yoxlamaların aparılmasına yol verilməməsini, kiçik və orta biznesin fəaliyyətinə müdaxilələrin minimuma endirilməsini və yaxın gələcəkdə tamamilə aradan qaldırılmasını, bütün yoxlamaların risk meyarlarına əsaslanmasını, yoxlamaların yalnız ciddi nəticələr gözlənilən vergi ödəyicilərində aparılmasının vacibliyini və əsassız tələblərin irəli sürülməsinin yolverilməzliyini iclas iştirakçılarının nəzərinə çatdırmışdır. Qeyd edilmişdir ki, ilk növbədə, yoxlamadan əvvəlki hazırlıq işlərinə xüsusi diqqət yetirilməli, vergidənyayınma risklərinin səviyyəsinin və hüquq pozuntularının mövcudluğu faktları dəqiq araşdırıldıqdan sonra vergi yoxlamalarının təyin edilməsi barədə qərar çıxarılmalıdır. Bu, həm sahibkarlıq subyektlərində nəticəsiz yoxlamalara yol verilməməsi, vergi ödəyicilərinin ciddi əsaslar olmadan yoxlanılmasının aradan qaldırılmasını, həm də vergi orqanları tərəfindən inzibati və insan resurslarından daha səmərəli istifadə olunmasını təmin edəcəkdir.

F.Məmmədov illik dövriyyəsi 120 min manatdan aşağı olan və sadələşdirilmiş qaydada vergi ödəyən sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsinin müvəqqəti dayandırılması haqqında göstəriş vermişdir ki, bu da obyekti olan 70 minə yaxın vergi ödəyicisini əhatə edəcəkdir. Qeyd edilməlidir ki, cari ilin 9 ayı ərzində bu qəbildən olan nəzarət tədbirlərinin sayı 20 mindən çox olmuşdu.

Vergilər naziri bildirmişdir ki, maliyyə əməliyyatlarının şəffaflığının təmin edilməsi və nağd ödənişlərin məhdudlaşdırılması məqsədilə müasir elektron ödəniş xidmətlərinin daha da genişləndirilməsinə dair ölkə başçısının tapşırığına uyğun olaraq, cari ilin 9 ayı ərzində 13 minə yaxın POS-terminal quraşdırılaraq ümumi sayı 85 minə çatdırılmış, elektron qaimə-fakturaların tətbiqi ilə bağlı qanunvericiliyə dəyişikliklərlə bağlı layihələr hazırlanaraq hökumətə təqdim edilmişdir.

Cari ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasında qəbul edilmiş qərarların və Tədbirlər Planının icra vəziyyətinə toxunan nazir bu sahədə pozitiv nəticələrin olduğunu, 2015-ci ildə vergi daxilolmalarının təmin edilməsi məqsədilə nəzərdə tutulan işlərin uğurla həyata keçirildiyini vurğulamışdır. Bildirilmişdir ki, 2015-ci ilin 9 ayında dövlət büdcəsinə daxil olmuş vəsaitin 600 milyon manatını vergi nəzarəti tədbirləri nəticəsində toplanmış vəsait təşkil edir.

Əldə olunmuş nəticələrə baxmayaraq, hələ də vergi orqanlarının fəaliyyətində bir sıra ciddi nöqsanların mövcudluğunu xatırladan F.Məmmədov vergi orqanları əməkdaşlarının etik davranış məsələlərinə nəzarətin artırılması, daxili nəzarət tədbirlərinin gücləndirilməsinin vacibliyini vurğulamışdır. Vergilər naziri korrupsiya və vəzifəsindən sui-istifadə etmə hallarına yol verən əməkdaşlar barədə daha sərt tədbirlərin görülməsi, fəaliyyətində korrupsiyaya cəhd elementləri aşkar olunmuş əməkdaşlara münasibətdə intizam tədbirləri görülmədən onların dərhal işdən azad edilməsi barədə tapşırıq vermişdir.

Vergi ödəyicilərinə xidmət sahəsində fəaliyyətin fəallaşdırılmasının zəruriliyini qeyd edən F.Məmmədov biznes mühitinin yaxşılaşdırılması, vergilərin ödənilməsi sahəsində sahibkarların qarşılaşdıqları bütün problemlərin aradan qaldırılması üçün vergi ödəyiciləri ilə əməkdaşlığın aktivləşdirilməsi, kiçik və orta biznesə göstərilən ünvanlı xidmətlərin genişləndirilməsi, vergi ödəyicilərinin vaxtında məlumatlandırılması, xüsusilə regionlarda çalışan sahibkarlara vergi öhdəliklərinin yerinə yetirilməsində hüquqi, texniki və əməli köməkliklərin göstərilməsi, partnyorluq münasibətlərinin dərinləşdirilməsi, bu işlərə «vergi dostları»nın daha geniş şəkildə cəlb edilməsi barədə xidmət strukturlarına müvafiq göstərişlər vermişdir.

Dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafının, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişlənməsinin vergi orqanlarının qarşısında duran əsas vəzifələrdən biri olduğunu xatırladan nazir kiçik dövriyyəyə malik sahibkarlıq subyektlərinə münasibətdə vergi xidmətinin nəzarətedici orqan kimi yox, daha çox tərəfdaş qismində çıxış etmələrini, sahibkarlara bir addım daha yaxın olmağı, kiçik məbləğli cərimələrin tətbiqinə yol açan halların aradan qaldırılması üçün, ilk növbədə, vergi orqanlarının xidmət strukturlarının daha fəal işləmələrinin zəruriliyini bildirmişdir.

Dövlətdən sosial yardım alan vətəndaşların bəyannamə təqdim etməməsi kimi hallara görə cərimələnməsinin yolverilməzliyini bildirən nazir bəyannamələrin vaxtında təqdim olunmasına köməklik göstərilməsi yolu ilə xidmət rəhbərlərindən belə halların tamamilə aradan qaldırılmasını tələb etmişdir. Ölkə regionlarının inkişafı ilə bağlı iki Dövlət Proqramının uğurla yerinə yetirildiyini xatırladan vergilər naziri regionların iqtisadi inkişafda artan roluna diqqət çəkərək, bölgələrdə sahibkarlığın inkişafı üçün vergi orqanlarının səlahiyyətləri çərçivəsində onlara hərtərəfli köməklik göstərilməsinin və regionların vergi daxilolmalarının artımında iştirak payının yüksəldilməsinin vacibliyini vurğulamışdır.

F.Məmmədov ölkə Prezidentinin 30 min iş yerinin bağlanması ilə bağlı iradlarına toxunaraq bildirmişdir ki, bunun səbəbləri vergi orqanları tərəfindən də ciddi araşdırılmalı və qarşısını almaq üçün üzərlərinə düşən bütün vəzifələri yerinə yetirməli, digər tərəfdən işçilərin müqavilə olmadan işlərin yerinə yetirilməsinə cəlb edilməsi, vergidən yayınmaq məqsədilə iş yerlərinin sayının süni surətdə azaldılması halları aşkar olunduqda, buna qarşı sərt tədbirlər görülməlidir.

Bildirilmişdir ki, vergi orqanları üçün gələn ilin büdcə sənədlərində müəyyənləşdirilmiş proqnozların icrası ən vacib hədəfdir və ölkə iqtisadiyyatının mövcud vəziyyəti, onun stabil və dayanıqlı olması büdcənin cari xərclərinin tamamilə ödənilməsində Vergilər Nazirliyinin payının artırılmasına nail olmağa imkan verir. Bu məqsədlə vergi orqanları öz səylərini daha da artırmalı, gücləndirilmiş iş rejimində çalışmalıdırlar.

Kollegiya iclasında Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayında sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrlə bağlı iclasında verilmiş tapşırıqların və 2016-cı ilin dövlət büdcəsinin icrası məqsədilə Tədbirlər Planının hazırlanması barədə qərar qəbul edilmişdir.

# Vergi yenilikləri: Vergilər Nazirliyinin işində nə dəyişəcək?

*Vergilər Nazirliyinin kollegiya iclasının nəticələri ölkə ictimaiyyətində böyük maraq doğurmuşdur. Təqdim etdiyimiz məqalə də bu marağın ifadəsidir.*

Dövlət başçısının Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Vergilər Nazirliyinin qarşısına qoyduğu tapşırıqların icrası ilə bağlı nazirliyin kollegiya iclası keçirilmişdir.

Xatırladaq ki, Vergilər Nazirliyinə aid tapşırıqların da verildiyi Nazirlər Kabinetinin iclası oktyabrın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmişdir. İclas dövlət başçısının səsləndirdiyi bir sıra tezislərlə yadda qalmışdır. Onların bəzilərini xatırlatmaq yerinə düşər.

İclasda çıxış edən Prezident investisiya və biznes mühitinin yaxşılaşdırılmasının günün vacib məsələ olduğunu qəti şəkildə ifadə etmişdir. Prezidentin sözlərinə görə, bunun üçün əlavə tədbirlər görülməlidir, çünki ölkənin davamlı və uğurlu inkişafının əsasını məhz sahibkarlığın inkişafı təşkil edir. İlham Əliyev biznesin gələcək inkişafı və biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılacağına əmin olduğunu bildirmişdir. Bununla yanaşı, dövlət başçısı sahibkarlıq subyektlərində aparılan yoxlamalara bağlı ona çoxsaylı şikayətlərin də göndərildiyini qeyd etmişdir. Prezidentin sözlərinə görə, yoxlamalar həddindən artıq çoxdur, yoxlama aparan təşkilatlar isə sanki bir-biri ilə rəqabətə çıxıblar ki, bu da dözülməzdir: «Buna da son qoyulmalıdır. Ona görə, qısa müddət ərzində mənə yoxlamalarla bağlı müfəssəl məlumat verilsin, hansı qurumlar kimi yoxlayırlar, ildə neçə dəfə yoxlayırlar, nə üçün yoxlayırlar?». «Ümumiyyətlə, biz bu yoxlamaların sayını kəskin şəkildə aşağı salmalıyıq», - deyən dövlət başçısı qeyd etmişdir ki, yerli icra orqanları, o cümlədən hüquq-mühafizə orqanları bəzi hallarda sahibkarlara problemlər yaradaraq onlardan pul tələb edirlər: «Sahibkar heç kimə - nə yerli icra orqanlarının, nə də hüquq-mühafizə orqanlarının nümayəndələrinə borclu deyil, ancaq dövlətin vergisini verməlidir, vəssalam. Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır». Prezident bildirmişdir ki, Azərbaycanda lisenziyaların sayı həddindən artıq çoxdur və bu problem də öz həllini tapmalıdır: «Mənə verilən məlumata görə, lisenziyaların sayı getdikcə artır. Əksinə, azalmalıdır, amma bizdə artır. Nəyə görə? Çünki müvafiq qurumlar çalışırlar ki, lisenziyaların sayını artırsınlar. Lisenziya da nədir? Pul mənbəyidir... Əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün, büdcəmiz nə qədər arta bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yəni, hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq».

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə göndərdiyi qanun layihəsində yoxlamaların noyabrın 1-dən 2 il müddətinə dayandırılması qeyd olunur. Sənəddə sahibkarlığın inkişafının Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biri olduğu vurğulanır. Lakin biznes üçün xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət, lisenziya alınma prosedurları sahibkarlığın inkişafına əlavə əngəl olmuşdur ki, bu da korrupsiya hallarının yaranmasına şərait yaratmışdır. Buna görə də sahibkarlığın inkişafını stimullaşdırmaq, əlverişli biznes mühitini təmin etmək üçün lisenziya tələb olunan biznes fəaliyyətinin bütün növləri üzrə (dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) vermək Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilmişdir.

Bu lisenziyalar «ASAN xidmət» mərkəzlərində veriləcək. İqtisadiyyat və Sənaye Nazirliyinə bir ay vaxt verilmişdir ki, lisenziya tələb olunan fəaliyyət növlərinin sayını minimuma endirmək üçün Azərbaycan Prezidentinə təkliflər təqdim etsin. Bundan əlavə, İqtisadiyyat və Sənaye Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi xüsusi razılıqların (lisenziyaların), sertifikatların, şəhadətnamələrin və sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan digər sənədlərin elektron formada verilməsini təmin edən «E-Lisenziya» portalının yaradılmasını sürətləndirməlidirlər. Milli Məclisə təqdim edilmiş «Lisenziya və icazələr haqqında» Azərbaycan Respublikası Qanununun layihəsinə baxmağı tezləşdirmək də tövsiyə olunmuşdur. Artıq oktyabrın 20-də Milli Məclis dövlət başçısının sahibkarlıq sahəsində yoxlamaları 2 il müddətinə dayandırmaq haqda təşəbbüsünü təsdiq etmişdir.

Prezidentin çıxışına sahibkarlığın inkişafı ilə əlaqədar bu və ya digər dərəcədə aidiyyəti olan dövlət və hökumət orqanlarından dərhal reaksiyalar verilməyə başladı. Bununla bağlı Vergilər Nazirliyində də kollegiya iclası keçirilmiş və iclasda bildirilmişdir ki, nazirlik tərəfindən illik dövriyyəsi 120 min manatdan az olan və sadələşdirilmiş qaydada vergi ödəyən sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin keçirilməsi müvəqqəti dayandırılır. Kollegiya iclasında Azərbaycan Respublikasının vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov müvafiq tapşırıqlarını vermişdir. Nazirin sözlərinə görə, bu məsələdə əmək müqavilələrinin bağlanmasına və aksizli malların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması halları istisna təşkil edir: «Vergi yoxlamalarının müvəqqəti dayandırılması 70 minə yaxın vergi ödəyicisini əhatə edəcəkdir. Qeyd edilməlidir ki, cari ilin doqquz ayı ərzində bu qəbildən olan nəzarət tədbirlərinin sayı 20 mindən çox olmuşdur».




Şübhəsiz, nazirin tapşırıqları kiçik sahibkarlığın inkişafına müsbət təsir göstərəcəkdir. Heç kimə sirr deyil ki, planlı və ya plandankənar aparılan səyyar vergi yoxlamaları müəyyən vaxt itkisinə, bəzən də həddindən artıq vaxt itkisinə gətirib çıxarır. Həm də bu cür yoxlamaların aparılmasına yalnız iş adamları və onların işçiləri deyil, vergi orqanları əməkdaşları da xeyli vaxt sərf edirlər. Beləliklə, illik dövriyyəsi 120 min manatdan az olan və sadələşdirilmiş qaydada vergi ödəyən sahibkarlarda səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin keçirilməməsi biznes subyektlərinin və vergi əməkdaşlarının vaxta qənaət etməsinə imkan verəcək. Nəticədə vergi əməkdaşları öz səylərini daha vacib məsələlərin həllinə, məsələn, iri müəssisələrin vergi ödəmələrinə, müntəzəm şəkildə vergidən yayınan şəxslərlə mübarizəyə yönəldə biləcəklər.

Daha bir məqam. Bəzən sahibkarların fəaliyyətinə natəmiz əllər də uzanır. Göründüyü kimi, heç olmasa biznesin bir hissəsində yoxlamaların dayandırılması bu sahədə sui-istifadə və korrupsiya riskini azaldacaq. Şayiələrə görə, qanunsuz tələblərdən ən çox ziyan görən sahibkarlığın daha həssas təbəqəsi - kiçik müəssisələr olurdu. Beləliklə, yoxlamaların dayandırılması kiçik biznesi natəmiz əllərdən qoruyacaq. Qeyd edək ki, Vergilər Nazirliyinin kollegiya iclasında bu məsələlərə də toxunulub. Nazir Fazil Məmmədov lüzumsuz yoxlamaların yolverilməz olduğunu, kiçik və orta sahibkarların fəaliyyətinə müdaxilələrin minimuma endirilməsinin və gələcəkdə tamamilə ləğv olunmasının zəruriliyini qeyd etmişdir: «Vergi orqanlarının sərt nəzarət sistemi ilə sahibkarların fəaliyyətinə yersiz müdaxilələr arasında sərhədlərin müəyyənləşdirilməsi zəruridir». Onun sözlərinə görə, yoxlamalardan əvvəlki hazırlıq işlərinə diqqət yetirilməli, vergidənyayınma risklərinin səviyyəsinin və hüquq pozuntularının mövcudluğu faktları dəqiq araşdırıldıqdan sonra vergi yoxlamalarının təyin edilməsi barədə qərar çıxarılmalıdır. Nazir qeyd etmişdir ki, yoxlamalar yalnız ciddi nəticələr gözlənilən vergi ödəyicilərində aparılmalıdır. O, vergi ödəyicilərinə qarşı əsassız tələblərin irəli sürülməsinin yolverilməz olduğunu xüsusilə qeyd etmişdir. Bildirilmişdir ki, dövlətdən sosial yardım alan vətəndaşların bəyannamə təqdim etməməsi hallarına görə cərimələnməsi yolverilməzdir. Fazil Məmmədov vergi orqanlarının rəhbərlərinə tapşırmışdır ki, vergi bəyannamələrini vaxtında təqdim etməkdə bu təbəqədən olan insanlara yardım göstərsinlər.

Vergilər naziri tərəfindən vergi ödəyiciləri ilə vergi orqanları arasında tərəfdaşlığa dair mühüm mesaj səsləndirilmişdir: «Vergi orqanlarının qarşısında duran əsas vəzifələrdən biri sahibkarlığın inkişafının, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsidir. Bununla bağlı vergi xidməti nəzarətedici orqan kimi yox, daha çox tərəfdaş qismində çıxış etməli, sahibkarlara bir addım daha yaxın olmalıdır».

Nazir vergi daxilolmalarını artırmaq üçün bu işdə regionların iştirak payının yüksəldilməsinin vacibliyini qeyd etmişdir. «Ölkə regionlarının iqtisadi inkişafda rolu artır. Bölgələrdə sahibkarlığın inkişafı üçün vergi orqanlarının səlahiyyətləri çərçivəsində onlara hərtərəfli kömək göstərilməlidir... Vergilərin ödənilməsi sahəsində sahibkarların qarşılaşdıqları bütün problemlərin aradan qaldırılması üçün vergi ödəyiciləri ilə əməkdaşlıq aktivləşdirilməlidir». Vergilər naziri eyni zamanda, kiçik və orta biznesə göstərilən ünvanlı xidmətlərin genişləndirilməsinin zəruriliyini vurğulamışdır. O, vergi ödəyicilərinin vaxtında məlumatlandırılması, xüsusilə regionlarda çalışan sahibkarlara vergi öhdəliklərinin yerinə yetirilməsində hüquqi, texniki və əməli köməklik göstərilməsi, bu işlərə «Vergi dostları»nın daha yaxından cəlb edilməsi barədə göstəriş vermişdir.

Bildirilmişdir ki, dövlət başçısı əlverişli biznes mühitinin formalaşdırılmasını, şəffaflığın daha da artırılmasını vergi orqanlarının əsas vəzifələrindən biri kimi müəyyənləşdirmişdir. Qeyd edilmişdir ki, vergilərin ödənilməsi hər kəsin konstitusion vəzifəsidir, sahibkarlıq subyektləri öz vergi öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirməlidirlər. Kollegiya iclasında vurğulanmışdır ki, 2015-ci ilin 9 ayı ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 5 milyard 94,2 milyon manat vəsaitin toplanılması təmin edilmiş, proqnoza 100,5 faiz əməl olunmuşdur. Fazil Məmmədov demişdir ki, əldə olunan nailiyyətlərə baxmayaraq, vergi orqanlarının fəaliyyətində hələ də bir sıra ciddi nöqsanlar vardır: «Vergi orqanı əməkdaşlarının etik davranış məsələlərinə nəzarətin artırılması və daxili nəzarət tədbirlərinin gücləndirilməsi vacibdir». Nazir vəzifəsindən sui-istifadə hallarına yol verən əməkdaşlar barədə daha sərt tədbirlərin görülməsi, fəaliyyətində korrupsiyaya cəhd elementləri aşkar olunmuş əməkdaşlara münasibətdə intizam tədbirləri görülmədən onların dərhal işdən azad edilməsi barədə tapşırıq vermişdir.

Sahibkarların rəyləri: 1news.az tərəfindən kiçik və orta biznes nümayəndələri arasında aparılmış sorğu göstərmişdir ki, onların əksəriyyəti nazirliyin kollegiya iclasının nəticələrini müsbət dəyərləndirirlər.

«Yoxlamalar çox vaxt aparır. Bəzən bütün iş dayanır. Özü də bir gün yox, həftələrlə. Ona görə ki, yoxlanılan obyektdə yoxlama zamanı bir adam deyil, bütün ofis bununla məşğul olur. Mən onun tərəfdarıyam ki, biznes müəssisəsini yalnız vergidənyayınma faktı mövcud olduqda yoxlasınlar, ya da bütün dünyada olduğu kimi, ildə bir dəfə. Bizdə isə elə olur ki, vergi əməkdaşları rübdə bir dəfə yoxlamaya gəlirlər», - sahibkar Anar Q. demişdir. İş adamı bir sıra təkliflər də irəli sürmüşdür: «Çox vaxt vergi əməkdaşları yoxlamalar zamanı vergilərə dair müxtəlif qanunvericilik aktlarına əsaslanırlar. Ona görə də yaxşı olardı ki, Vergilər Nazirliyinin rəsmi internet saytında vergi ödəyicisinin öz biznes fəaliyyəti üzrə qanunvericiliklə bağlı hansı informasiyaları bilməli barədə asan başa düşülən məlumatlar yerləşdirilsin. Onlayn kalkulyator kimi xidmətlərin tətbiq edilməsi də pis olmazdı. Bununla istənilən sahibkar ödəməli olduğu vergini asanlıqla hesablaya bilərdi».

Rəyi soruşulanların əksəriyyəti vergi orqanları tərəfindən tətbiq olunan elektron xidmətlərin daha da genişləndirilməsini arzu etmişdir. İrəli sürülən bu mülahizənin məğzi çox sadədir: vergi ödəyiciləri ilə vergi əməkdaşları arasında təmas minimuma endirilsin.

Sahibkar Tamerlan Bağırov vergi orqanları tərəfindən aparılan istənilən yoxlamanın videoçəkilişinin aparılmasına tərəfdardır. Onun fikrincə, bu, korrupsiya və rüşfətxorluq hallarının qarşısını almağa kömək edər və istənilən şübhəli vəziyyətin aydınlaşdırılmasına şərait yaradar.

Şübhəsiz ki, Vergilər Nazirliyinin kollegiya iclasında qəbul edilmiş qərarlar, nazirin tapşırıqları ölkədə biznes mühitinin inkişafına müsbət təsir göstərəcək.

**Alyona SALAYEVA, «1news»**

## Yoxlamaların məhdudlaşdırılması ilə bağlı qərar müsbət qarşılanır

Ölkə başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında sahibkarlıq subyektlərində əsassız yoxlamaların keçirilməsi, sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması, eləcə də sahibkarlığın inkişaf etdirilməsi məqsədilə sahibkarlıq subyektlərində bəzi yoxlamaların dayandırılması ilə bağlı tapşırıq verilmişdir.

Vergilər Nazirliyinin son kollegiya iclasında ölkə başçısının tapşırığına uyğun olaraq, əmək müqaviləsinin bağlanması, vergi ödəyicilərinin dövriyyəsinin müəyyənləşdirilməsi məqsədilə xronometraj metodu ilə yoxlamaların keçirilməsi və aksizli malların satışı zamanı aksizlərin tətbiqinə nəzarət istisna olmaqla digər yoxlamaların keçirilməsinin məhdudlaşdırılması ilə bağlı qərar verilmişdir.

Ölkədə fəaliyyət göstərən televiziya kanalları sahibkarlıq subyektlərində yoxlamaların məhdudlaşdırılması ilə bağlı sahibkarların fikirlərini öyrəniblər.

Sahibkar Hikmət Abdulhəşimov dövlət başçısının sahibkarlığın inkişafına dəstək məqsədilə verdiyi qərarın müsbət addım olduğunu bildirmiş və bundan sonra sahibkarların incidilməsinə yol verilməyəcəyinə inandığını demişdir. Qeyd etmişdir ki, əvvəllər vergi orqanları tərəfindən müəyyən yoxlamalar olsa da, kollegiya iclasında vergilər nazirinin bununla bağlı çıxışı sahibkarları xeyli sevindirdi: «Çox önəmli qərardır. Yoxlamaların məhdudlaşdırılması biznesimizin inkişaf etdirilməsində böyük kömək olacaq».

Ticarət obyekti sahibi Rəsul Qasımov isə hesab edir ki, yoxlamaların dayandırılması ilə bağlı qərar sahibkarların işini xeyli asanlaşdıracaq: «Əvvəllər müxtəlif orqanlar tərəfindən ayda bir-iki dəfə yoxlamalar olurdu. Bu yoxlamaların nəticələrinin necə olmasından asılı olmayaraq, vaxtımız gedirdi, işimiz ləngiyirdi. Yoxlamaların məhdudlaşması ilə bağlı verilən qərarlardan sonra bizim üçün daha rahat olacaq. Bu addımın atılması ölkədə biznesin inkişafına böyük təkan verəcək».

## Gömrük sahəsində yoxlamalar sadələşdirilir

Prezident İlham Əliyev gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında fərman imzalayıb. Sənədə əsasən, fiziki şəxslər tərəfindən Azərbaycanın gömrük ərazisinə gətirilən və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğindən (müşayiət edilən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə 2000 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan mallar (aksizli mallar, avtonəqliyyat vasitələri və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalar istisna olmaqla) gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçiriləcək.

Dövlət Gömrük Komitəsi «İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanunun tətbiq edilməsi barədə» Prezidentin 2011-ci il 3 mart tarixli fərmanının 3.1-ci və 3.2-ci bəndlərinə uyğun olaraq, gətirilməsi və aparılması Qadağan edilən və məhdudlaşdırılan əşyaların siyahısının dövlət sərhədinin buraxılış məntəqələrində hər kəsin yaxşı görə biləcəyi lövhələrdə yerləşdirildiyinə dair məlumatı 1 ay müddətində dövlət başçısına təqdim edəcək.

## Aksiz vergisinə həsr olunmuş beynəlxalq təlim

Avstriya Beynəlxalq Vergi Hüququ İnstitutu tərəfindən Vyanada təsis edilmiş Dövlət Maliyyə Akademiyasının mütəxəssisləri Moskva şəhərində «Aksiz vergisinin yığılması sahəsində inzibatçılıq» mövzusunda təlim kursu aparmışlar. Aksizin tətbiq olunmasında təcrübəyə malik vergi əməkdaşları üçün nəzərdə tutulmuş təlimdə, Azərbaycan da daxil olmaqla, 5 ölkənin nümayəndələri müşahidəçi qismində iştirak etmişlər.

Tədbirdə respublikamızı Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Energetika, rabitə və nəqliyyat idarəsinin 2-ci şöbəsinin rəis müavini Araz Əsgərov təmsil etmişdir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi bəyannaməsinin təqdim olunması

***Gəlir vergisi bəyannaməsini Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətdən gec təqdim edə bilərəmmi?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 72.1-ci maddəsinə görə, VM-in məqsədləri üçün vergi hesabatı vergi bəyannaməsindən ibarətdir. Rezident müəssisələr, Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan qeyri-rezidentlər, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər və ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən, xüsusi notariuslar isə hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına gəlir vergisi və ya mənfəət vergisi bəyannaməsi verirlər (VM, maddə 149). Lakin VM-in 74-cü maddəsi ilə gəlir vergisinin hesabatının verilməsi müddətinin uzadılması ilə əlaqədar müddəalar nəzərdə tutulmuşdur. Hesabatın verilmə müddəti başa çatanadək vergi ödəyicisi gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə müraciət edirsə və bu zaman ödənilməli olan verginin məbləğini tamamilə ödəyirsə, hesabatın verilməsi müddəti üç ayadək uzadılmış hesab olunur (VM, maddə 74.1). Bu maddəyə uyğun olaraq, müddətin uzadılması verginin ödənilməsi müddətini dəyişdirmir.

VM-in 74.2-ci maddəsində qeyd edilmişdir ki, hesabat üzrə hesablanmış verginin məbləği ödənilmiş məbləğdən artıq olduqda, yaranan fərq verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə keçirilməlidir.

Hesabatın verilməsi müddəti uzadılana qədər vergi ödəyicisi tərəfindən ödənilmiş vergi məbləği hesabat verildikdən sonra hesablanmış vergi məbləğindən az olduqda, həmin fərqə 0,1% məbləğində faiz hesablanır (VM, maddə 59).

VM-in 57.1-ci maddəsində vergi bəyannaməsini əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Hesabatın verilməsi müddəti uzadılmış hesab olunduqda isə uzadılmış müddət başa çatanadək maliyyə sanksiyası tətbiq edilmir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Sahibkarlıqla bağlı islahatlar yüksək qiymətləndirilir

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, lisenziyaların sayının kəskin azaldılması və prosedurların sadələşdirilməsinə dair tədbirlərin davam etdirilməsini müsbət qiymətləndirib. Bankın birinci vitse-prezidenti Fil Bennett bildirib ki, azad biznesə dəstək xarakterli bu qərarlar sahibkarlığın inkişafına öz müsbət töhfəsini verəcək, xarici sərmayədarların Azərbaycanda kiçik və orta sahibkarlığa marağını artıracaq. Cənab Bennett sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, lisenziyalaşdırma, icazələr və digər mülki islahatların həyata keçirilməsində ölkəmizə texniki yardım göstərməyə hazır olduqlarını da bəyan edib.

Azərbaycan hökumətinə tövsiyə xarakterli məsələlərdən biri qeyri-neft sahəsində çalışan sahibkarların inamının artırılması üçün sığorta bazarının inkişaf etdirilməsi ilə əlaqədardır. AYİB hesab edir ki, sığorta sektorunda istehlakçıların hüquqlarının daha yaxşı qorunması məqsədilə, ilk növbədə, şirkətlər üçün ümumi şikayət proseduru və mexanizmi yaradılmalıdır. Sığorta sahəsində yardımçı fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin fəaliyyəti lisenziyalaşdırılmalı və onların fəaliyyətinə nəzarət edilməlidir. Sığorta agentləri və sığorta brokerləri üçün vahid Məcəllə hazırlanmalıdır.

AYİB-in Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində bir sıra layihələrin icrasına maliyyə dəstəyi göstərdiyini qeyd edən F.Bennett qarşıdakı illərdə tərəflər arasında nəzərdə tutulan əməkdaşlığın istiqamətlərinə də toxunub. Bildirilib ki, qurum yaxın 5 ildə ölkəmizdə korporativ idarəetmənin genişləndirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi, aqrar-sənaye komplekslərinin yaradılması və digər sahələrə maliyyə dəstəyi göstərəcək. Bank aqrobiznes sahəsində həyata keçirilən layihələrə dəstək vermək niyyətindədir və bu məqsədlə Azərbaycan hökuməti ilə yeni maliyyə çərçivəsinin hazırlanması nəzərdə tutulur.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

### 2015-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA:

- ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL SAHƏLƏRİNİN İNKİŞAFI ÜÇÜN BÜTÜN MALİYYƏ MƏNBƏLƏRİNDƏN ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ **11831,2 MİLYON** MANATLIQ VƏSAİTİN **74%-İ** TİKİNTİ-QURAŞDIRMA İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİNƏ SƏRF EDİLİB.
- YENİ YARADILMIŞ MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARIN **93,9%-İ** XÜSUSİ MÜLKİYYƏTLİ, O CÜMLƏDƏN 6,8%-İ TAM XARİCİ İNVESTİSİYALI, **1,8%-İ** BİRGƏ MÜLKİYYƏTLİ, **1,2%-İ** BƏLƏDİYYƏ MÜLKİYYƏTLİ, **4,9%-İ** İSƏ DÖVLƏT MÜLKİYYƏTLİ MÜƏSSİSƏLƏRİN PAYINA DÜŞÜR.
- DÖVLƏT NEFT FONDUNUN BÜDCƏ GƏLİRLƏRİ **5 MİLYARD 543,4 MİLYON** MANAT, BÜDCƏ XƏRCLƏRİ İSƏ **6 MİLYARD 397,1 MİLYON** MANAT TƏŞKİL EDİB.
- DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDUNUN FƏRDİ UÇOT SİSTEMİNDƏ QEYDİYYATA ALINAN ƏCNƏBİLƏRİN SAYI **17,65%** ARTIB, NƏTİCƏDƏ FƏRDİ UÇOT SİSTEMİNDƏKİ ƏCNƏBİLƏRİN SAYI **26.500** NƏFƏRƏ YÜKSƏLİB.
- ƏHALİYƏ GÖSTƏRİLƏN PULLU XİDMƏTLƏRİN HƏCMİ ÖTƏN İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ **6,2%** ARTARAQ 5 MİLYARD **111,8 MİLYON** MANAT OLUB.

# Elektron vergi hesab-fakturasının göndərilməsi

***Vergilər Nazirliyinin göstərdiyi elektron vergi hesab-fakturasının qəbulu xidməti əlavə dəyər vergisi ödəyicisinin elektron vergi hesab-fakturasını tərtib etmək, ləğv etmək, dəqiqləşdirmək, əvəzləşdirilən vergi hesab-fakturaları barədə məlumatları sistemə daxil etmək kimi əməliyyatların həyata keçirilməsini əhatə edir.***

Bu xidmətin göstərilməsi nəticəsində satıcı tərəfindən mal, iş və xidmətlərə görə elektron vergi hesab-fakturası hazırlanaraq təsdiq edilir və müvafiq əvəzləşmənin aparılması üçün alıcıya ötürülür.

Fiziki şəxsin özü və ya hüquqi şəxsin rəhbəri, yaxud ödəniş sənədlərini təsdiq etməyə səlahiyyətli olan digər şəxs onlara vergi orqanı tərəfindən verilmiş istifadəçi kodu, parol və şifrədən istifadə etməklə, yaxud gücləndirilmiş elektron imza vasitəsilə İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) daxil olaraq e-VHF altsistemini seçir, elektron vergi hesab-fakturasını hazırlayır və gücləndirilmiş elektron imza vasitəsilə təsdiq edərək göndərir.




Elektron xidmətin göstərilməsi zamanı istifadəçiyə elektron vergi hesab-fakturasının tərtibi iki rejimdə - onlayn və oflayn təklif olunur. Elektron vergi hesab-fakturası (e-VHF) altsistemi Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı (www.e-taxes.gov.az) vasitəsilə elektron vergi hesab-fakturasını onlayn rejimdə tərtib etmək, ləğv etmək, dəqiqləşdirmək, əvəzləşdirilən VHF barədə məlumatları daxil etmək, gücləndirilmiş elektron imzadan istifadə etməklə paketləmə aparmadan onları qarşı tərəfə göndərmək və s. kimi əməliyyatları yerinə yetirir. Elektron Faktura Tərtibatı (eFP) vasitəsilə oflayn rejimdə hazırlanmış paket formasında olan elektron fakturaları sistemə yükləmək və gücləndirilmiş elektron imzadan istifadə etməklə göndərmək də mümkündür.

Əlavə dəyər vergisi ödəyicisi olmayan və elektron sənəd mübadiləsi barədə müqavilə bağlamamış vergi ödəyiciləri «Faktura tərtibatı proqramı»ndan istifadə edə bilməzlər. İmtina üçün əsas olmadıqda elektron xidmət göstərilir.

***Yeni elektron vergi hesab-fakturasının hazırlanması***

«Yeni faktura» düyməsini basmaqla vergi ödəyicisi elektron fakturanı hazırlayaraq qarşı tərəfə təqdim edir. Bunun üçün istifadəçi «Kimə» bölməsində VÖEN xanasına sifarişçinin VÖEN-ni daxil edir. Bu zaman ödəyicinin adı və filialları sistem tərəfindən avtomatik doldurulur. Əgər obyekt varsa, onun adı siyahıdan seçilir, əks halda boş saxlanılır. «Əlavə et» düyməsilə fakturanın daxil edilməsi üçün cədvələ boş sətir əlavə edilir ki, istifadəçi həmin sətri doldurmalıdır. Bütün məlumatlar daxil edildikdən sonra istifadəçi fakturanı qarşı tərəfə təqdim etmək üçün gücləndirilmiş elektron imzadan istifadə etməklə «imzala və göndər» düyməsini basmalıdır.

***Elektron vergi hesab-fakturalarının ləğv edilməsi***

Satıcı göndərdiyi fakturanı ləğv etmək istədikdə «Göndərdiklərim» qovluğuna daxil olmalı, sol düyməni həmin fakturanın üstündə iki dəfə vurmalı və açılan ekranda «Fakturanı ləğv et» tapşırığını yerinə yetirməlidir. Bu zaman əməliyyatı təsdiqləmə barədə pəncərə açılır. Təsdiqdən sonra ləğvetmənin səbəbi yazılır və gücləndirilmiş elektron imzadan istifadə etməklə «imzala və göndər» düyməsi basılır. Nəticədə e-faktura ləğv edilir və bu, satıcının «göndərdiklərim», alıcının isə «gələnlər» qovluqlarında qeyd olunur. E-fakturanın ləğvi onu təqdim edən satıcı tərəfindən yerinə yetirilir. Əməliyyatdan sonra alıcının «e-qutu»suna bu barədə məlumat göndərilir. Bundan sonra həmin fakturada düzəliş aparıla bilməz, yalnız o, ləğv olunub yenisi yaradıla bilər.

***Dəqiqləşdirilmiş elektron vergi hesab-fakturasının göndərilməsi***

Dəqiqləşdirmə - elektron vergi hesab-fakturası təqdim edildikdən sonra vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi üçün əsas verən hallar üzə çıxdıqda qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə aparılır. Dəqiqləşdirilmiş e-faktura hazırlamaq üçün «faktura tipi» bölməsində «dəqiqləşdirilmiş» sözü qeyd edilir və fakturanın seriyası, nömrəsi daxil edilir. Bu əməliyyatdan sonra faktura üzrə məlumatlar ekrana gəlir. Müvafiq düzəlişlər edildikdən və təsdiqləndikdən sonra fakturaya sistem tərəfindən yeni seriya və nömrə verilir.

Satıcı tərəfindən təqdim edilmiş dəqiqləşdirilmiş elektron faktura alıcı tərəfindən təsdiq edilməlidir. Əgər satıcının təqdim etdiyi fakturanı təqdim edildiyi ayın sonuncu gününə qədər alıcı təsdiq etməzsə, proqram həmin fakturanı silir və o, dəqiqləşdirilməmiş sayılır.

***ƏDV bəyannamələrinin əvəzləşdirilməsi***

Vergi ödəyicisi əvəzləşdirilənlər ekranı vasitəsilə ƏDV bəyannamələrinə əvəzləşdirilən vergi hesab-fakturaları barədə məlumatları əlavə edərək vergi orqanına göndərir. Bunun üçün «əvəzləşdirilənlər» düyməsi basılır. Ekranda «dövrü seç» düyməsi basıldıqdan sonra il, dövr tipi, ay rekvizitləri daxil edilir və «qəbul» düyməsi basılır. Nəticədə pəncərənin «hesabat dövrü bəyannamələri» bölməsində seçilmiş hesabat dövrünə uyğun bütün bəyannamələrin siyahısı görünür. Hər hansı bəyannamənin üzərində sol düyməni iki dəfə vurduqda və ya «baxış» düyməsini basdıqda, əvəzləşdirilən fakturaların (varsa) siyahısı ekranda əks olunur. Siyahıda vəziyyəti «təsdiqlənəcək» bəyannaməyə, əvəzləşdirilən fakturaları əlavə etmək üçün «əvəzləşdiriləcək faktura məlumatları» bölməsindəki cədvələ əvəzləşdirilən fakturanın seriyası, nömrəsi, tarixi daxil edilir, siyahıdan sətir kodu seçilir, təqdim olunan hesabat dövrü, istifadəçinin VÖEN-i, adı qeyd edilir və «daxil et» düyməsi basılır. İstifadəçi bu bölümdə e-fakturanın seriya və nömrəsini daxil etdikdə bəzi məlumatlar sistem tərəfindən avtomatik doldurulur. Bu qayda ilə əvəzləşdiriləcək bütün fakturalar «əlavə et» düyməsindən sonra «daxil etdiyiniz son 5 əvəzləşəcək faktura» bölməsindəki cədvələ düşür. «Baxış» düyməsi vasitəsilə əvəzləşdiriləcək fakturaların siyahısına baxmaq və ya onları çap etmək olar.

Siyahı tamamlandıqdan sonra gücləndirilmiş elektron imzadan istifadə etməklə «imzala və göndər» düyməsini basmaq lazımdır. Nəticədə göndərilən siyahı ƏDV bəyannaməsinə 1 nömrəli əlavə kimi vergi orqanına göndərilir. Bu əməliyyatdan sonra yuxarıda əlavə edilən fakturalar «daxil etdiyiniz son 5 əvəzləşəcək faktura» bölməsindəki cədvəldən silinir. «Hesabat dövrü bəyannamələri» bölməsində olan təsdiqlənəcək bəyannamənin vəziyyəti isə «təsdiqləndi» kimi göstərilir. Bununla ƏDV bəyannaməsinin əvəzləşdirilməsi əməliyyatı başa çatdırılmış olur. Oflayn rejimdə hazırlanmış paketlərin göndərilməsi üçün «Paket göndər» düyməsi basılır. Aşağıdakı ekranda paket növü, paketlənmiş faylın yeri göstərilir və gücləndirilmiş elektron imzadan istifadə etməklə «imzala və göndər» düyməsi basılır. Əməliyyatlar real vaxt rejimdə icra olunur.

Elektron vergi hesab-fakturası vergi ödəyicisi tərəfindən müvafiq qaydada hazırlanıb təsdiq edildikdən sonra Vergilər Nazirliyinin rəsmi internet səhifəsi - «İnternet Vergi İdarəsi» tərəfindən avtomatik olaraq alıcının bu səhifədəki şəxsi elektron qutusuna ötürülür.

**AYTƏN**

# Sahibkarların xarici bazarlara çıxışı asanlaşacaq

## *İş adamları üçün «Qaynar xətt» yaradılıb*

İqtisadiyyat və Sənaye Nazirliyi (İSN) sahibkarlara süni maneələrin yaradılması halları barədə məlumatların çatdırılması və buna qarşı operativ tədbirlərin görülməsi məqsədilə «Qaynar xətt» yaradıb. «Qaynar xətt»ə daxil olan müraciətlər gün ərzində araşdırılaraq müvafiq qurumların iştirakı ilə aidiyyəti üzrə tədbirlər görüləcək. Xüsusilə də sahibkarların fəaliyyətinə müdaxilə edən, yoxlamalar aparmaq istəyən, onların istehsal və satış obyektlərinə daxil olaraq maneələr yaradan dövlət və ictimai qurumların nümayəndələrinin əməlləri barədə ölçü götürüləcək.

Xatırladaq ki, dövlət başçısının tapşırığına uyğun olaraq hökumət tərəfindən hazırlanmış yeni qaydalara əsasən, 2015-ci il noyabrın 1-dən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılacaq. Həmin müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparılacaq. Bununla yanaşı, lisenziya və digər razılıq tələb edən sənədlərin əldə edilməsi zamanı dövlət rüsumu istisna olmaqla, sahibkarlardan əlavə pul istənilməsi hallarına qarşı da mübarizə aparılacaq. Sahibkarlar hansısa fəaliyyət növü üzrə müəyyən edilmiş dövlət rüsumunu «ASAN xidmət» vasitəsilə ödəyəcəklər, bununla da onlardan əlavə məbləğ tələb olunmasının qarşısı alınacaq. Əgər hər hansı icra qurumu lisenziya və digər sənədlərlə bağlı sahibkarı incidərsə, sahibkarın «Qaynar xətt»ə müraciəti əsasında həmin idarənin əməkdaşı barədə müvafiq ölçü götürüləcək.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev sahibkarlıq sahəsində lisenziyaların sayının azaldılması, prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi istiqamətində görülən işlərlə yanaşı, ixracla məşğul olan sahibkarların mənafeyinə xidmət edən yeni tədbirlərin də nəzərdə tutulduğunu diqqətə çatdırıb. Təkliflərə əsasən, Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyasının sürətləndirilməsi məqsədilə idxal-ixrac sənədlərinin sayının azaldılması, nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliliyinin artırılması və tranzit daşımalarında prosedurların sadələşdirilməsi nəzərdə tutulur.

Yerli biznesə əlavə imkanlar yaradılması və xidmət şəraitinin yaxşılaşdırılması, idxalın daha keyfiyyətli məhsullarla əvəz edilməsi və gömrük rəsmiləşdirilməsi prosesinin tezləşdirilməsi məqsədilə tədbirlər planı hazırlanacaq. Hazırda sərhəd-buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında tətbiq olunan «bir pəncərə» prinsipinin daha da asanlaşdırılması nəzərdə tutulur.

İxracı stimullaşdıran tədbirlər sırasında Azərbaycan sahibkarlarının xarici bazarlara asan çıxışı üçün potensial bazar hesab edilən ölkələrdə logistika mərkəzlərinin yaradılması da yer tutur. Artıq Qazaxıstanda belə bir mərkəz istifadəyə hazırdır və noyabr ayında açılışı planlaşdırılıb. Mərkəz vasitəsilə Azərbaycanda istehsal olunan sənaye, kənd təsərrüfatı və ərzaq məhsulları Qazaxıstana, eləcə də Aktaudan digər region ölkələrinə çatdırılacaq.

**E.CƏFƏRLİ**

# İnsan resurslarının inkişafı: Fransanın təcrübəsindən maraqlı məqamlar



*Bu günlərdə Vergilər Nazirliyinin nümayəndə heyəti «Fransa Respublikası Dövlət Baş Maliyyə Direktorluğunun insan resursları üzrə idarəetmə işinin təşkili» mövzusunda keçirilən tədbirdə iştirak etmək üçün bu ölkədə səfərdə olublar. «İnsan resurslarının inkişafı üzrə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində keçirilən tədbirlərdə təcrübə mübadiləsinin artırılması və digər məsələlər müzakirə edilib. Nümayəndə heyətinin rəhbəri, vergilər nazirinin elektron audit, insan resursları və informasiya texnologiyaları sahələrinin modernizasiyası məsələləri üzrə müşaviri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Asəf Əsədovla söhbətimiz də səfərlə bağlı olub.*

***- Asəf müəllim, Fransa səfərinin əsas məqsədi nədən ibarət idi?***

- Səfərdə başlıca məqsəd Tvinninq layihəsinə uyğun olaraq insan resurslarının inkişafı üzrə Vergilər Nazirliyinin yeni strategiyasının və fəaliyyət planının hazırlanması, daxili qaydaların və digər normativ aktların təkmilləşdirilməsi, dayanıqlı tədris-təlim sisteminin yaradılması və tətbiqi, dövlət vergi orqanlarında insan resurslarının idarə edilməsi sahəsində Fransa Respublikasının təcrübəsinin öyrənilməsi, bu sahədə təcrübə mübadiləsinin aparılması idi. Parisdə Fransanın Dövlət Baş Maliyyə Direktorluğunda, Dövlət Maliyyəsi üzrə Milli Məktəbdə, direktorluğun Orlean ərazi idarəsində, Növer şəhərində yerləşən Milli Təlim Mərkəzində (ENFiP) keçirilən görüşlərdə vergi işçilərinin hüquqi statusunu tənzimləyən normativ hüquqi aktlar, işçilərin karyerasının idarə edilməsi, o cümlədən onların xidməti fəaliyyətinin qiymətləndirilməsi, vəzifədə yüksəlişi, rotasiyası və motivasiyası, əməkhaqqı sistemi və onun komponentləri, vergi işçilərinin etik davranış qaydaları, menecer qrupuna dəstək və menecerlərin müşayiət edilməsi sistemi, insan resurslarının idarə edilməsi üzrə cari vəziyyət, mövcud çətinliklər və gələcək hədəflər, tədris-təlim sistemi və bu sahədə istifadə edilən texniki alətlər - proqram təminatı ilə ətraflı tanış olduq.

***- Bu ölkədə vergi orqanlarına işə qəbul sistemi necə qurulub?***

- Fransada işə qəbul iki istiqamətdə - xarici və daxili müsabiqə əsasında aparılır. Xarici müsabiqə kənardan işə cəlb olunan şəxslər üçün təşkil edilir. Ötən il bu müsabiqədə 70700 iddiaçı iştirak edib və 4200 nəfər işə qəbul olunub. Daxili müsabiqə isə daha yüksək vəzifələrin tutulması üçün təşkilatın əməkdaşları arasında təşkil edilir. İstisna hallarda mütəxəssislər kənardan müqavilə əsasında da işə qəbul oluna bilər.

Ən vacib odur ki, işə qəbulun təşkili də iki ixtisas qrupu üzrə aparılır.

**Birinci qrup** - vergi idarəetməsi üzrə xarici müsabiqə vasitəsilə işə qəbul olunmaq və A kateqoriyası almaq istəyən şəxs 5 yazılı və 2 şifahi imtahan verməlidir. Yazılı imtahanlar sintez (məntiq, nəticəçıxarma, yaradıcı düşüncə və digər xüsusiyyətləri yoxlamaq üçün), seçmə fənlər (riyaziyyat, iqtisadiyyat və ya hüquq, mühasibat) və xarici dil üzrə aparılır. Şifahi imtahan isə biri motivasiya (bu peşənin seçilməsinin əsaslandırılması) və digəri seçmə fənn (riyaziyyat, konstitusiya hüququ, mülki hüquq, cinayət hüququ, iqtisadiyyat, ekonometrika və s.) üzrə münsiflər heyəti tərəfindən aparılır. İmtahan sualları Milli Məktəbin tərkibində daimi fəaliyyət göstərən xüsusi bölmənin əməkdaşları tərəfindən hazırlanır.

Xarici müsabiqə vasitəsilə B kateqoriyası almaq üçün üç yazılı və bir şifahi (seçmə fənn) imtahan verilir. İddiaçıların sayı çox olduqda test üsulu ilə fransız dili, riyaziyyat, mədəniyyət və məntiq üzrə ilkin imtahan keçirilir. Minimal səviyyəni keçən əməkdaşlar yazılı və şifahi imtahanlara buraxılırlar.

**İkinci qrup** - informatika üzrə mütəxəssislərin işə qəbulu zamanı sintez (məntiq, nəticəçıxarma, yaradıcı düşüncə və digər xüsusiyyətləri yoxlamaq üçün), seçmə fənlər (riyaziyyat, iqtisadiyyat və ya hüquq, mühasibat), xarici dillə yanaşı, informatika və proqram dilləri üzrə yazılı imtahanlardan sonra şifahi imtahanlar təşkil edilir.

Müsabiqələrin təşkili regionlarda yerləşən təlim məktəbləri tərəfindən həyata keçirilir. İşə qəbul A, B və C kateqoriyaları üzrə ayrılıqda aparılır. A kateqoriyası əməkdaşa işə qəbul olunduqdan sonra karyerası üzrə iş stajından asılı olaraq inspektor, əsas inspektor, administrator müavini, administrator və baş administrator vəzifələrini tutmaq hüququ verir. Bu kateqoriya üzrə xarici müsabiqə 5 il universitetdə təhsil almış namizədlər arasında aparılır. B kateqoriyası işə qəbul olunduqdan sonra əməkdaşa inspektor (maliyyə inzibatçısı) vəzifəsini tutmağa imkan verir. B kateqoriyası üzrə işçilər A kateqoriyası olan işçilər üçün yardımçı rol oynayırlar. B kateqoriyası üzrə namizədlər 3 illik universitet təhsili alanlar olur.

Yeri gəlmişkən, hesab edirəm ki, bu tip praktikanın, yəni işə qəbulun və ilkin hazırlıq proqramlarının 2 qrup (vergi inzibatçılığı və vergi sahəsində informatika) üzrə aparılmasının Azərbaycanda da tətbiqi məqsədəuyğundur. Ölkəmizin vergi orqanlarında müvafiq imtahanları və ilkin hazırlıq proqramını uğurla keçmiş və işə qəbul olunmuş işçilər 1-ci qrup (vergi inzibatçılığı) üzrə vergi müfəttişi, 2-ci qrup (vergi sahəsində informatika) üzrə isə vergi analitiki statusları ala bilərlər.

Bunun əsaslandırılması ondan ibarətdir ki, müasir «rəqəmsal» dövrdə vergi orqanlarının əsas işi vergi qanunvericiliyinin tətbiqi ilə yanaşı, vergi ödəyiciləri və onların fəaliyyəti haqqında dövlət və özəl təşkilatlar tərəfindən verilən məlumatların e-formatda alınması və təhlili əsasında qurulur. Son illər məlumatların alınmasında və təhlilində əsas diqqət riyazi-statistika metodlarına əsaslanan informasiya texnologiyalarının tətbiqinə verilir. Ona görə də əksər aparıcı Avropa ölkələrində vergi orqanlarının 7-10%-ni informasiya texnologiyaları ilə işləyən mütəxəssislər təşkil edir. Məsələn, Fransa və İspaniyada vergi orqanlarına bu sahə üzrə mütəxəssislərin işə qəbulu ayrıca aparılır.

***- İşə qəbul edilmiş əməkdaşların ilkin hazırlıq prosesi necə həyata keçirilir?***

- İlkin hazırlıq kurslarının müddəti A kateqoriyası üzrə 18 aydır - onun 12 ayı əyani təhsil, 6 ayı isə praktiki təcrübədir. B kateqoriyası üzrə isə bu müddət 7 ay əyani təhsil və 5 ay praktiki təcrübədən ibarət olmaqla 12 aydır. C kateqoriyası (texniki yardımçı işçilər) üzrə müddət 6 həftədir.

A kateqoriyalı işçilərin ilkin hazırlığının əyani təhsil hissəsi iki fazaya bölünür. Hər il sentyabrın 1-də başlayan və 6 ay davam edən 1-ci fazada menecment və mühasibat fənləri tədris olunur, eləcə də təşkilat barədə (strukturu, ümumi mədəniyyət və davranış normaları, tənzimləyici aktlar, vergi qanunvericiliyi, peşəkar fəaliyyətin nəzəri əsasları və s.) müfəssəl məlumat verilir. Fevral ayında başlayan və iyul ayının sonlarınadək davam edən 2-ci fazada isə peşə üzrə vergi inzibatçılığı, dövlət idarəçiliyi kimi fənn blokları tədris olunur. Fənlərin əksəriyyəti Təlim Məktəbinin müəllimləri tərəfindən tədris edilir, praktiki xarakterli mövzuların tədrisi üçün isə vergi administrasiyasının təcrübəli əməkdaşları dəvət olunurlar.

Birinci fazada 1 həftəlik, ikinci fazada isə 2 həftəlik praktiki təcrübə keçilir. Hər iki fazanın sonunda əməkdaş yazılı və şifahi imtahan verir. İmtahanları uğurla verən əməkdaş növbəti ilin sentyabrından başlayaraq 6 ay müddətində iş yerində praktiki təcrübə keçir. Bu zaman ona rəhbər (kurator) təyin olunur. Təcrübənin sonunda rəhbərin müsbət rəyini alan əməkdaş real fəaliyyətə başlayır.

***- Maraq doğuran məsələlərdən biri də işçilər üçün ixtisasartırma tədbirlərinin həyata keçirilməsidir...***

- İxtisasartırma kursları işçilərin adaptasiyası, karyera yüksəlişi, iş prosesində yeniliklərin mənimsənilməsi, qanunvericilik aktlarında dəyişikliklərin öyrənilməsi məqsədləri üçün həyata keçirilir. Bu kurslar əsasən könüllü xarakter daşıyır, lakin kurslarda iştirak etmək əməkdaşın əməkhaqqının artımında və karyera yüksəlişinin təmin edilməsində nəzərə alınan əsas amillərdən hesab olunduğu üçün işçinin təlimə motivasiyası yaranır.

Əyani təhsilalma formasında təşkil edilən ixtisasartırma kurslarının müddəti 1-4 gün olur. Bu kursların məzmunu bilavasitə funksional sahə, idarəetmə və digər peşəkar biliklərlə bağlı praktiki xarakterli mövzuları əhatə edir. Kursların sonunda könüllü qiymətləndirmə keçirilir və onun nəticələrinin uçotu aparılır.

Fransada təlim müddətlərinin azaldılması üçün müvafiq tədbirlər görülür. Xüsusilə e-learning (e-öyrənmə) alətlərindən istifadə daha çox əhəmiyyət kəsb edir. E-learning vasitəsilə ixtisasartırma kursları Təlim Məktəbinin xüsusi yaradılmış e-learning şöbəsi tərəfindən həyata keçirilir. Şöbənin işi peşəkar mütəxəssislərin - ekspertlərin mövzu üzrə verdiyi təlim materialı əsasında animasiyalar və digər video vasitələrin köməyi ilə elektron təlim modullarını hazırlamaq, həmin modullar əsasında kursları təşkil etmək, onların uçotunu aparmaq və təkmilləşdirməkdir. Şöbənin əməkdaşları təlim modullarının dizayneri funksiyasını icra edir, qiymətləndirmə bloklarını yaradır və kursları idarə edirlər. Bir əməkdaş ildə 4-5 təlim modulu hazırlaya bilir. E-learning kurslarının müddəti 15 dəqiqədən 9 saatadək davam edir və müddət məhdudlaşdırılmır. Əsas məqsəd mövzuya dair biliklərin dinləyiciyə asan formada çatdırılmasıdır.

Xüsusi əhəmiyyət verilən məsələlərdən biri təlimin nəticəsinin qiymətləndirilməsi məqsədilə aparılan sorğulardır. Sorğular təlimin müxtəlif aspektlərini (müddətini, aktuallığını, materialların keyfiyyətini, təlim şəraitini və s.) qiymətləndirməyə və aşkar olunan çatışmazlıqların aradan qaldırılmasına xidmət edir.

***- Asəf müəllim, Fransada dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi sistemi necə təşkil olunub?***

- Bu ölkədə 1,7 milyon nəfər dövlət qulluqçusu var ki, onların 110 mini Dövlət Baş Maliyyə Direktorluğunda çalışır. Ölkə üzrə əməkhaqqı fondu təxminən 7 milyard avro təşkil edir. Direktorluğun işçilərinin say tərkibi və əməkhaqqı fondu parlament tərəfindən təsdiq olunur. Son 12 ildə işçilərin sayı 30 faizədək azaldılıb, hər il təxminən 2 faizədək ixtisar aparılır. İxtisarlar əsasən pensiyaya çıxan işçilərin boş qalan yerlərinin hesabına həyata keçirilir.

İşçilərin vəzifələri A, B və C kateqoriyaları üzrə fərqləndirilir. A kateqoriyasına ali və yuxarı rəhbər vəzifələr (təxminən 50%), habelə müfəttiş vəzifələri daxildir (ümumi işçi heyətin 29%-i), B kateqoriyasına daha sadə funksiyaları həyata keçirən vəzifələr (40%), C kateqoriyasına isə sırf icraçı funksiyalara malik texniki xarakterli vəzifələr daxildir (31%).

2010-cu ildən Fransada dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi üçün müsahibə üsulundan istifadə edilir. Müsahibə zamanı il ərzində əldə edilən nəticələr, növbəti il üçün məqsədlər (həm keyfiyyət, həm də kəmiyyət xarakterli) və tapşırıqlar, işçinin ehtiyacı olan təlimlər, gələcək karyera perspektivləri, maraq və istəkləri, peşəkar dəyəri, şəxsi keyfiyyətləri, işə münasibəti, ictimai xidmət hissi dəyərləndirilir, rəhbər heyətin isə əlavə olaraq komandanı idarəetmə bacarığı və məqsədlərin düzgün müəyyənləşdirilməsi qabiliyyəti nəzərə alınır.

Müsahibənin nəticələri xüsusi elektron formada öz əksini tapır. İşçinin fəaliyyəti qeyri-kafi, orta, yaxşı, çox yaxşı və ya əla olmaqla qiymətləndirilir, əlavə olaraq fikir bildirilir, hər bir işçinin zəif və güclü cəhətləri göstərilir. Peşəkar müsahibənin aparılması və nəticələrin qiymətləndirilməsi üçün mütəmadi olaraq müsahibəni götürən şəxslərə təlimlər keçilir. A, B, C kateqoriyasına aid vəzifələri tutan işçilərin peşəkar müsahibə forması eynidir, amma A kateqoriyasında olan yuxarı rəhbər heyətin («A+» adlandırılır) qiymətləndirilməsi forması digərlərindən fərqlənir.

Müsahibənin nəticələrindən yuxarı rəhbərə şikayət oluna bilər. Statistikaya əsasən, adətən, hər il müsahibədə iştirak edən işçilərin təxminən 2%-i nəticələrlə razılaşmayaraq şikayət edir. Şikayəti araşdıran komissiyanın tərkibinə yuxarı rəhbər, mərkəzi administrasiyanın əməkdaşı və işçini təmsil edən nümayəndə daxil olur.

***- İşçilərin əməkhaqqı sistemi necə tənzimlənir?***

- Fransada əməkhaqqı sistemi təsnifatdan və dərəcəyə görə müəyyən edilən baza və əlavə hissədən - bonuslardan ibarətdir. İşçilərə məsuliyyət dərəcəsinə görə bonus hesablanır. Bu, nəzarət olunan şəxslərin və strukturun fəaliyyətinin əhatə etdiyi sahənin sayından asılı olaraq əməkhaqqı bazasına müəyyən faizin hesablanması deməkdir. Bundan başqa, əməkdaşa işin çətinliyi və risklərin qarşılanma dərəcəsinə, fərdi nəticələrinə və töhfələrinə, menecerin nəzarətində olan komandanın, struktur bölmənin və şöbənin fəaliyyətinin nəticələrinə, xidmət illərinə, peşəkar bilik və bacarıq səviyyəsinə, səriştəsinə görə əlavə bonuslar hesablanır. Vəzifənin təyinatı, xüsusiyyətləri və məsuliyyəti, iş yerinin regionu, işçinin uşaqlarının sayı nəzərə alınmaqla da maaşa əlavələr edilir.

Dövlət Baş Maliyyə Direktorluğunda işçilərin mobilliyinin təmin edilməsi və düzgün paylanılması insan resurslarının idarə olunması sahəsində əsas məqsədlərdəndir. Bu mənada, işçilər mobilliyinə görə 2 növ üzrə fərqləndirilir: coğrafi mobillik; vəzifə üzrə mobillik. İşçilərin mobilliyinin təşkili və aparılması 2008-ci ildə təsdiq edilmiş qaydalara əsaslanır.

İşçilərin rotasiyası proseduruna qısa şəkildə nəzər saldıqda məlum olur ki, bu proses hər il oktyabr ayında başlayır. Oktyabr-noyabr aylarında mobillik qaydaları Həmkarlar İttifaqı ilə birlikdə nəzərdən keçirilir. Müraciətlərin qəbulu dekabrın 15-dən yanvarın 15-dək aparılır. Transfer konkret vəzifələr üçün deyil, ümumilikdə bütün orqan üzrə elan edilir. Müraciətlərə xüsusi proqram təminatı ilə baxılır: bir işçi istənilən sayda vəzifəyə transfer olunmaq üçün müraciət edə bilər. Bir vəzifəyə bir neçə nəfər müraciət etdiyi təqdirdə, təcrübəsi, (staj illəri) daha çox olana üstünlük verilir. Təyinatlar sentyabrın 1-dək yekunlaşır.

***- Sözsüz ki, bu cür səfərlər qabaqcıl təcrübənin mübadiləsi baxımından əvəzsizdir. Azərbaycanın vergi sistemində hazırlıq kurslarının təşkili ilə bağlı rəy və təklifləriniz nədən ibarətdir?***

- Hazırladığımız təkliflərə əsasən, Vergilər Nazirliyində həyata keçirilən ilkin hazırlıq kurslarının təşkili 3 fazadan ibarət olmaqla 6 ay müddətinə nəzərdə tutulur. 1-ci fazada (müddəti 2 ay) elektron təlim modulları vasitəsilə müstəqil öyrənmə, 2-ci fazada (müddəti 2 ay) onlayn təlimlərin təşkili, 3-cü fazada (müddəti 2 ay) isə Tədris Mərkəzində əyani təhsil təklif olunur. Birinci və ikinci fazalara əməkdaşlara özünüqiymətləndirmə imkanlarının yaradılması, 3-cü fazaya isə həm test üsulu, həm də yazılı imtahanların təşkili aiddir. İlkin hazırlıq kurslarının tədris-mövzu planına menecment, vergi inzibatçılığının nəzəri əsasları, informasiya texnologiyaları və vergi məlumatlarının təhlili kimi fənn bloklarına əlavələr, ixtisasartırma kurslarının tədris-mövzu planlarında vergi qanunvericiliyində edilmiş dəyişikliklər, peşəkar fəaliyyətlə bağlı olan praktiki biliklərin tədrisinə daha çox üstünlük verilməsi, ixtisasartırma kurslarının sonunda praktiki fəaliyyətlə bağlı məsələlər əsasında yazılı imtahanların təşkili daxildir. Həmçinin, əməkdaşların müstəqil öyrənmə imkanlarının hazırlanması üçün elektron təlim modullarının hazırlanması və istifadəyə verilməsi, onların daimi monitorinqinin aparılması, e-learning üçün lazımi proqram təminatı və texniki imkanların yaradılması, təlimlərin qiymətləndirilməsi üçün istifadə olunan sorğuların Fransa təcrübəsi əsasında təkmilləşdirilməsi nəzərdə tutulur.

İlkin hazırlıq, ixtisasartırma və e-learning sahəsində təlim təcrübəsinin daha müfəssəl öyrənilməsi üçün Dövlət Baş Maliyyə Direktorluğunun Təlim məktəbləri ilə əməkdaşlığın yaradılması, təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərin təşkili vacibdir.

***Müsahibəni hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Elektron ticarət bazarı genişlənir

Azərbaycanda elektron ticarətin təşkili və həyata keçirilməsinin hüquqi əsasları, iştirakçıların hüquq və vəzifələri, eləcə də elektron ticarət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət «Elektron ticarət haqqında» Qanunla tənzimlənir. Qanunun xüsusi müddəalarından biri də budur ki, satıcı alıcıya və səlahiyyətli dövlət orqanlarına yanlış məlumat verməyə görə məsuliyyət daşıyır.

E-ticarətdən istifadə artdıqca təhlükəsizlik tədbirlərinin əhəmiyyəti də aktuallaşır. Dələduzların qurbanına çevrilməmək üçün e-ticarət zamanı diqqət yetirilməli olan bəzi məqamlar var. Əvvəla, məhsul və xidmətlərini əldə edəcəyimiz internet-mağazanın etibarlılığına, məhsulun çatdırılması şərtləri, zəmanət müddəti, malın geri qaytarılması imkanı, əlavə xərclər və s. haqqında təklif və məlumatların tam və həqiqiliyinə əmin olmaq lazımdır. İnternet-mağazanın veb səhifəsində müştərilər haqqında məlumatların ötürülməsi və qorunması üzrə təhlükəsizlik məlumatları öz əksini tapmalıdır. Mağazanın məxfilik haqqında siyasəti ilə tanış olmaq, məlumat təhlükəsizliyi sistemindən istifadə olunub-olunmadığını dəqiqləşdirmək lazımdır. Əgər qoruyucu işarələrdən heç biri mövcud deyilsə, ödəniş kartına aid məlumat daxil edilməməlidir. PİN-kod və hesab nömrəsi qorunmalıdır və internet mağazasının satıcılarına açıqlanması yolverilməzdir. Yayılması narahatlıq yarada biləcək məlumat, habelə həyata keçirilən ödənişlə əlaqəsi olmayan şəxsi məlumat açıqlanmamalı, parollar, o cümlədən hesab üzrə məsafəli xidmət sisteminə qoşulmaq üçün istifadə olunan parol digər şəxslərə verilməməlidir. Yaxşı olar ki, internet şəbəkəsində ödənişlər aparmaq üçün balansında böyük məbləğ olan ödəniş kartlarından deyil, ediləcək ödənişin məbləği qədər vəsait olan ayrıca kartdan istifadə olunsun və internetdə həyata keçirilən əməliyyatlar haqqında bütün məlumatların surəti çıxarılaraq etibarlı yerdə saxlanılsın.

**AYTƏN**




**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin doqquz ayında Azərbaycanda elektron pərakəndə ticarət dövriyyəsinin həcmi 9,3 milyon manat təşkil edib və əvvəlki ilin eyni dövrünə nisbətən 2 dəfə artım qeydə alınıb. E-ticarət vasitəsilə əhalinin sifariş verdiyi istehlak məhsullarının 92,2 faizi hüquqi şəxslərdən, 7,8 faizi isə fərdi sahibkarlardan alınıb. E-ticarət dövriyyəsinin 96,4 faizi qeyri-ərzaq məhsullarının payına düşüb.**

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Nurlan Mahmudov və İlham Məmmədov ortaq olub işə başlayanda niyyətləri yaxşı qazanc əldə etmək idi və bu məsələdə onları heç kim qınaya bilməz. Əvvəlcə xırdavat işləri ilə məşğul olurdular, bundan xeyir çıxmadığını görüb daha böyük biznesə girişmək qərarına gəldilər. Başqa şəxsə məxsus olan «Az.Trade.Kontrakt» və «Nika Biznes» MMC-lərin sahiblik hüququnu qazandılar. MMC-lərin alqı-satqısını notarial qaydada rəsmiləşdirdilər, nizamnaməni, reyestrdən çıxarışı, möhürü, VÖEN-i, şifrə və parolu əldə etdilər. Tərəflərin razılığı ilə İlham Məmmədov MMC-lərə direktor təyin edildi.

İlk vaxtlar işləri yaxşı gedən şərikli biznesmenlərin ortaqlığı sonradan onlara baha başa gəldi. Mühasibat işlərindən və vergi bəyannamələrinin tərtibindən yaxşı anlayışları olmadığı və ya bu işin məsuliyyətini lazımınca qiymətləndirmədikləri üçün MMC-lərin fəaliyyətinə aid sənədlərin saxtalaşdırılması, vergilərin ödənilməməsi onların dəmir barmaqlıqlar arxasına düşmələrinə gətirib çıxardı. Vergi orqanlarının keçirdikləri səyyar yoxlamalar zamanı «Nika Biznes» MMC-də 179.348,03 manat, «Az.Trade.Kontrakt» MMC-də isə 269.489 manat məbləğində əlavə dəyər vergisinin dövlət büdcəsinə ödənilməkdən yayındırılması faktı aşkar olundu və həmin motiv üzrə cinayət işinin başlanmasına qərar verildi.

Toplanmış materiallar əsasında müvafiq araşdırmlar aparan Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin iddiası əsasında hər iki şəxs barəsində Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi üzrə cinayət işi başlandı və onlar barəsində həbs qətimkan tədbiri seçildi.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilən İ.Məmmədov və N.Mahmudov onlara qarşı elan edilmiş ittihamla özlərini təqsirli hesab edərək göstəriblər ki, birlikdə işlətdikləri müəssisənin dövlət büdcəsinə ödənilməli olan vergilərini şəxsi məqsədləri üçün istifadəyə yönəldiblər.

Cinayət işinin istintaqı zamanı ciddi hesabat sənədləri, o cümlədən vergi hesab-fakturaları, qaimə-fakturalar, alqı-satqı müqavilələri, məhkəmə-mühasibat ekspertizasının məhkəmə-xətşünaslıq ekspertizasının rəyləri iş materialları ilə təsdiq olunduğundan maddi sübut kimi tanınaraq cinayət işinə əlavə edildi. Beləliklə, aparılmış istintaqla İlham Məmmədov və Nuran Mahmudovun qanunda nəzərdə tutulan cinayəti törətmələri kifayət qədər sübuta yetirildi və onlar məhkəmə məsuliyyətinə cəlb olundular.

Yasamal Rayon Məhkəməsinin qərarı ilə Nurlan Mahmudov 3 il 6 ay, İlham Məmmədov isə 3 il azadlıqdan məhrum edildi.

**ELBRUS**

# Əmanətlərin sığortalanması qaydaları dəyişir

Azərbaycan Respublikası Əmanətlərin Sığortalanması Fondu vətəndaşların əmanətlərinin sığortalanmasını təmin etməklə, bankların iflası və ya onların lisenziyasının geri çağırılması hallarında banklara qoyulan əmanətlərin qaytarılmasını təmin etmiş olur.

Fondun icraçı direktoru Azad Cavadovun sözlərinə görə, Azərbaycanda bank əmanətlərinin sığortalanması qaydalarının dəyişəcəyi gözlənilir. Əsas dəyişikliklərdən biri bu olacaq ki, hər hansı bankdan kredit götürən şəxsin həmin bankdakı əmanətləri qorunacaq: «Məsələ bundadır ki, hazırda bankda əmanəti olanlar həmin bankdan kredit götürdükdə onların bankdakı əmanətləri avtomatik olaraq sığorta təminatından kənarda qalır. Yəni bankdakı əmanət lazımi tələblərə cavab versə də (illik 12%-lə yerləşdirilib, məbləği isə 30 min manatı ötmür), bu bankdan kredit götürmək həmin əmanətin sığortalanmaması ilə nəticələnir. İndi bu məsələnin əmanətçilərin xeyrinə həll olunması müzakirə edilir».

cəmi əmanətlərinin 69%-ni (5 milyard 44 milyon manat) qorunan əmanətlər, 31%-ni (2 milyard 292 milyon manat) isə qorunmayan əmanətlər təşkil etmişdir. Kompensasiya olunan əmanətlər ilin əvvəlinə olan göstərici ilə müqayisədə 31% (528 milyon manat) artaraq 2 milyard 213 milyon manat olmuşdur ki, bu da ümumi əmanətlərin 30%-ni, qorunan əmanətlərin isə 44%-ni təşkil edir.

Üzv banklar tərəfindən 7.304.127 əmanətçiyə xidmət göstərilir və onların 6.634.971 nəfərinin (91%) əmanəti qorunur, 99,6%-nin (6.240.434 nəfər) əmanəti 30 min manata qədərdir və 100 faiz sığortalanır. Qorunan əmanətlərin 71%-i ABŞ dollarının, 25%-i manatın, 4%-i avronun payına düşür. Hazırda Fondun sığorta ehtiyatları 109,4 milyon manat təşkil edir.

Sərbəst vəsaitlərin idarə edilməsi fondun investisiya siyasətinə uyğun həyata keçirilir. Manatda olan vəsaitlər 78,7 milyon manat məbləğində dövlət qiymətli kağızlarında yerləşdirilmiş və orta hesabla illik gəlirlilik 4,2%

*2015-ci ilin 9 ayının nəticələrinə görə, Əmanətlərin Sığortalanması Fondunda fiziki şəxslərin cəmi əmanətləri (7 milyard 336 milyon manat) ümumi əmanətlərin (maliyyə sektoru istisna olmaqla) 60%-ni təşkil etmişdir*

Digər mühüm yenilik sahibkarların banklardakı depozitləri ilə bağlıdır. Təklif edilir ki, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin də banklardakı depozitləri sığortalansın. A.Cavadov deyib ki, fiziki şəxslərlə bağlı məsələnin gündəmə gəlməsi xarici təcrübəyə əsaslanır: «Əmanətlərin sığortalanması bütün ölkələrdə ilk olaraq sadə vətəndaşlara şamil edilib, daha sonra isə bu xidmət sahibkarlıqla məşğul olan fiziki şəxslərə də tətbiq olunub. Tədricən hüquqi şəxslərin də əmanəti qorunacaq».

Qeyd edək ki, 2015-ci ilin 9 ayının nəticələrinə görə, Əmanətlərin Sığortalanması Fondunda fiziki şəxslərin cəmi əmanətləri (7 milyard 336 milyon manat) ümumi əmanətlərin (maliyyə sektoru istisna olmaqla) 60%-ni təşkil etmişdir. Bu müddətdə fiziki şəxslərin ümumi əmanətləri 659 milyon manat (10%), qorunan əmanətlər 2 milyard 3 milyon manat (66%) artmış, qorunmayan əmanətlər isə 1 milyard 344 milyon manat (-37%) azalmışdır. İlin doqquz ayının yekununda fiziki şəxslərin təşkil etmişdir. Fondun 5 milyon avro vəsaiti isə «Deutsche Asset & Wealth Management International» şirkəti vasitəsilə idarə olunur.

Fondun doqquz aylıq gəlirləri 19,2 milyon manat olmuşdur ki, bunun da 16,5 mln. manatını təqvim haqları, 20 min manatını üzvlük haqları, 2,6 mln. manatını isə faiz və digər gəlirlər təşkil edir. Fondun doqquz aylıq cəmi xərcləri 1,2 milyon manat olub. 2015-ci ilin üçüncü rübünün sonuna fondun iştirakçısı olan bankların sayı 43-dür.

Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin diqqətinə çatdırır ki, 24 fevral 2015-ci il tarixindən qorunan əmanətlərin illik faiz dərəcəsinin maksimal həddi 12%-dir. 24 fevral 2015-ci il tarixinədək iştirakçı banklarda illik maksimum 12%-lə qəbul olunmuş əmanətlər də 24 fevral 2015-ci il tarixdən etibarən qorunan əmanət hesab olunur və fond tərəfindən sığortalanır. Bu faizdən yuxarı faiz dərəcəsi ilə yerləşdirilən əmanətlər qorunmur və onlara görə kompensasiya ödənilmir.

**Fəxriyyə İKRAMQIZI**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

## Audit

3-cü seçimin edilməsi (aylıq əlavə dəyər vergisi, illik mənfəət vergisi və illik muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergilər üzrə mükəlləfiyyətin qəbul edilməsi) böyük ehtimal ki, mövcud ictimai birliklərə qaneedici olmayacaq. Çünki yenicə fəaliyyətə başlayan və ya ölkədə uzun müddət fəaliyyət göstərən ictimai birliklərin böyük əksəriyyətinin gəlirləri yalnız qrant (yardım), üzvlük haqları, ianə və digər bu kimi gəlirlərdən ibarətdir. Belə gəlirlər də Vergi Məcəlləsinə uyğun olaraq ya ƏDV-yə sıfır dərəcə ilə vergiyə cəlb ediləndir, ya da qeyri-sahibkarlıq istiqamətində gəlirlər olduğuna görə, ƏDV tutulan əməliyyatlar deyildir. Çox cüzi sayda QHT-lər ola bilər ki, ƏDV qeydiyyatına məruz qalsınlar. Ümumiyyətlə, ictimai birliklərin könüllü və ya məcburi qaydada ƏDV qeydiyyatına alınması onun sahibkarlıq fəaliyyəti ilə əlaqəli olur. Vergi Məcəlləsinin 155.1-ci maddəsinin məzmunundan da aydın şəkildə görmək mümkündür ki, bütün digər tələblərlə birlikdə yalnız sahibkarlıq fəaliyyəti göstərən şəxslər ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Digər tərəfdən, sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan və ya olması planlaşdırılmayan ictimai birlik tərəfindən vergi orqanına könüllü qaydada ƏDV qeydiyyatına alınması üçün müraciət edilməsi isə tam məntiqsizdir. Mövcud faktorlara əsaslanaraq tövsiyə etmək olar ki, yeni yaradılan və ya sahibkarlıq fəaliyyəti göstərmədən gəlirləri yalnız yuxarıda göstərilən mənbələrdən olan ictimai birliklərin ƏDV mükəlləfiyyətini seçməsi məqsədəmüvafiq deyildir.

1-ci seçimin (rüblük sadələşdirilmiş vergi və illik muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergilər üzrə mükəlləfiyyətin) əhəmiyyətini müəyyənləşdirmək üçün misallar üzərində təhlil aparaq. Qeyd etdiyimiz kimi, ictimai birliklər ən çox hallarda 1-ci seçimi, yəni sadələşdirilmiş vergitutma sistemini qəbul edirlər. Lakin təcrübə göstərir ki, sadələşdirilmiş vergi mükəlləfiyyətini seçməklə fəaliyyət göstərən ictimai birliklər vergi problemləri və həmçinin, vergi orqanı ilə münasibətlərdə uyğunsuzluq məqamlarına daha çox rast gəlirlər. Məsələn, ictimai birlik dövlət satınalmaları üzrə tenderlərdə iştirak etməklə dövlətin sosial-ictimai sahədəki tədbirlərinin təşkilini həyata keçirə bilər. Sadələşdirilmiş vergi ödəyicisi olan peşəkar ictimai birliyin «xidmətlərin göstərilməsi müqaviləsi» çərçivəsində belə tədbirin təşkil etməsi fəaliyyəti sahibkarlıq fəaliyyətidir, buna baxmayaraq, bu gəlirlər sadələşdirilmiş vergiyə cəlb olunandır. İctimai birlik tərəfindən çəkilən bütün xərclərin həcmi müqavilə üzrə əldə edilən gəlirin həcminə bərabər olması və bunun da nəticəsində hər hansı mənfəətin əldə edilməməsinə baxmayaraq, ictimai birlik əldə edilən gəlirdən (hasilatın həcmindən) sadələşdirilmiş vergi ödəməli olur, çünki sadələşdirilmiş verginin ödəyicisidir. İctimai birliyin sadələşdirilmiş vergi xərcini tender üzrə təklif etdiyi qiymətlərdə nəzərə almaq hüququnun olmasına baxmayaraq, bu, əlavə xərc yaratdığından, tenderdə qalib gəlməsinə əngəl ola bilməsi səbəbindən, həmin birlik sadələşdirilmiş vergi xərcini qiymətlərdə nəzərə almır və ya almağı unudur. Nəticədə ictimai birlik sadələşdirilmiş vergi yükünə məruz qalır. Başqa bir misal olaraq göstərmək olar ki, məsələn, ictimai birlik nizamnaməsində nəzərdə tutduğu fəaliyyət istiqamətləri üzrə hər hansı tədbirin həyata keçirilməsinin maliyyələşdirilməsi üçün imkanlı kommersiya təşkilatına müraciət edir və kommersiya təşkilatı tərəfindən müraciətə müsbət cavab alan ictimai birlikdən tədbirin maliyyə büdcəsi tələb olunur. Tədbir üçün tələb olunan büdcə razılaşdırılaraq kommersiya təşkilatı tərəfindən ictimai birliyə maliyyə yardımı edilir. İctimai birliyin hesabına daxil olan maliyyə yardımı (pul) tam və düzgün olaraq büdcədə nəzərdə tutulan istiqamətlərdə istifadə olunur. Belə bir vəziyyətdə ictimai birlik tərəfindən güman edilir ki, baxmayaraq ki, sadələşdirilmiş vergi ödəyicisidir, bu cür aldığı yardım sadələşdirilmiş vergiyə cəlb oluna bilməz, çünki hər hansı təqdimetmə, xidmətlərin göstərilməsi və ya iş görülməsi baş verməmişdir, həmçinin hər hansı sahibkarlıq fəaliyyəti göstərilməmişdir. Lakin belə gəlirlərin satışdankənar gəlirlər kimi və ya sponsorluq çərçivəsində «yardım verənin» loqosunu (və ya əmtəə nişanını) təbliğ etmək və ya hər hansı tələbini yerinə yetirmək tapşırığının alınması aşkar olunduğu halda, ictimai birlik tərəfindən «sponsora» xidmətlərin göstərilməsi kimi nəzərə alınması vergi orqanı tərəfindən istisna edilmir. Burada da ictimai birlik tərəfindən çəkilən bütün xərclərin həcmi büdcə üzrə əldə edilən gəlirin (alınan yardımın) həcminə bərabər olması və bunun da nəticəsində hər hansı mənfəətin əldə edilməməsinə baxmayaraq, yuxarıda göstərilən hallar aşkar olunduğu halda, ictimai birlik əldə edilən gəlirdən sadələşdirilmiş vergi ödəməli olur, çünki sadələşdirilmiş verginin ödəyicisidir. Bu misal üzrə də qeyd etmək lazımdır ki, ictimai birlik əgər mənfəət vergisinin ödəyicisi olarsa, aldığı maliyyə yardımı çərçivəsində tədbirin həyata keçirilməsi ilə əlaqədar xərclərin həcmi gəlirin həcmi ilə eyni olduğundan mənfəət yaranmayacaq və QHT əlavə vergi öhdəlikləri ilə yüklənməyəcəkdir. Göründüyü kimi, ictimai birliklərin faktiki gəlir mənbələrinin və fəaliyyətlərinin predmetlərinin təhlili onu deməyə əsas verir ki, ictimai birliklərin sadələşdirilmiş vergitutma sistemini seçməsi həmin birliklərin vergilərlə bağlı siyasətinə uyğun gəlməyə bilər.

# Əlilliyin təyinatı prosesi avtomatlaşdırılır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəisi İlqar Qurbanov bildirib ki, rəhbəri olduğu qurumda şəffaflığın təmin olunmasına, əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyasının məqsədyönlü təşkilinə ciddi nəzarət tədbirləri həyata keçirilib. Bunun nəticəsində 2015-ci ilin 9 ayında ilkin əlillik təyin olunan şəxslərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3284 nəfər (13,9%), təkrar olaraq əlillik təyin edilən şəxslərin sayı isə 4440 nəfər (3,1%) azalıb.

İlkin olaraq sağlamlıq imkanları məhdud hesab edilən 18 yaşadək uşaqların sayı da keçən ilin müvafiq dövrü ilə müqayisədə 26%, yəni 3 min nəfərə yaxın azalıb. Doqquz ay üzrə 115 nəfər əlilliyi olan şəxsin və 130 nəfər sağlamlıq imkanları məhdud uşağın, ümumilikdə 245 nəfərin Türkiyənin Dənizli bölgəsindəki Nobel Tibb Mərkəzində ixtisaslaşmış bərpa müalicəsinə göndərilməsi təmin edilib ki, bu da ötən il xaricə bərpa müalicəsinə göndərilənlərlə müqayisədə 52,1 faiz çoxdur.

Qeyd edilib ki, cari ilin 9 ayında bərpa-müalicə müəssisələrində 5 min nəfərə yaxın şəxsə xidmət göstərilib, hazırda bu müəssisələrin bir çoxunda əsaslı təmir işləri aparılır. Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiya vasitələri ilə təchiz olunması və onlara protez-ortopediya xidməti uğurla davam etdirilir. 7158 nəfərə protez-ortopedik bərpa xidməti göstərilib, habelə əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlara ümumilikdə 28662 ədəd protez-ortopedik məmulat və reabilitasiya vasitələri verilib.

Xidmət rəisi ilin əvvəlindən tibbi-sosial ekspertiza və reabilitasiya xidmətinin elektron-informasiya sisteminin yaradılmasının diqqətdə saxlandığını, artıq aidiyyəti idarə, müəssisə və təşkilatlar arasında əlillik müayinəsi barədə məlumatların elektron mübadiləsinin təmin olunduğunu qeyd edib. Bildirib ki, ölkə başçısının «Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında» fərmanı bu sahədə mühüm irəliləyişə imkan yaradır: «Görülən işlər nazirliyin mərkəzləşdirilmiş informasiya sistemində mükəmməl proqram təminatlarına malik Tibbi-Sosial Ekspertiza və Reabilitasiya alt sisteminin yaradılmasına, tibbi-sosial ekspertiza xidmətinin elektron əsaslarla avtomatlaşdırılmış infrastrukturunun qurulmasına yönəlib. Yeni elektron sistem respublikada əlillik təyinatı prosesinin avtomatlaşdırılması nəticəsində bu sahədə məmur-vətəndaş təmaslarının minimallaşmasına və şəffaflığın təminatına şərait yaracaq. Fərmanla birinci dərəcə əlilliyin və tibbi göstəriş olan xüsusi hallarda ikinci və üçüncü dərəcə əlilliyin müddətsiz təyin edilməsi, ikinci və üçüncü dərəcə əlilliyin təyinat müddətinin 5 ildən az olmayaraq artırılması üçün əlilliyin müəyyən olunması meyarlarında dəyişikliklər edilməsi də nəzərdə tutulub. Belə bir mühüm tədbir bir il ərzində əlillik müayinələrindən keçən şəxslərin sayının 7 dəfə azalmasına imkan verəcək ki, bu da əlillik müayinələrində məmur-vətəndaş ünsiyyətinin əsaslı şəkildə azalması ilə nəticələnəcək».

**AYTƏN**



beynəlxalq panoram

# Belarusda vergi məsləhətçiləri institutu yaradılacaq

BMT-nin İnkişaf Proqramı və Belarus Respublikasının Vergilər və Yığımlar Nazirliyi «Belarus Respublikasında vergi məsləhətçiləri institutunun yaradılmasına kömək» adlı birgə layihə həyata keçirir.

Ekspertlər hesab edirlər ki, biznes ictimaiyyəti bu xidmətlərdə maraqlı ola bilər. Vergi məsləhətçiləri institutunun yaradılması vergi orqanlarının da işini azaldacaq. Layihənin rəhbəri Taisiya Yeletskix bildirib ki, əsas məqsəd vergi məsləhətçilərinin fəaliyyəti üçün hüquqi bazanın yaradılması, tədris-metodiki bazanın təşkili və seçiləcək pilot qrupun təlimatlandırılmasıdır. Bununla bağlı fərman layihəsi müzakirə mərhələsindədir, vergi məsləhətçilərinin təhsil proqramı artıq hazırlanıb, praktik dərslikləri tərtib edəcək peşəkar mütəxəssislər qrupu işə götürülüb.



Belarus Respublikasının Vergilər və Yığımlar Nazirliyinin Hüquq idarəsinin rəisi İnna Andreyuk bildirib ki, fərman vergi məsləhətçilərinin fəaliyyətinin əsaslarını və digər hüquqi aspektləri müəyyən edəcək: «Çalışacağıq ki, sənəd 2016-cı ilin yanvarından qüvvəyə minsin. Hədəfimiz vergi orqanlarının işini yüngülləşdirməkdir. Hazırda ləğv mərhələsində olan və uzun müddət vergi yoxlamasını gözləyən şirkətlər var. Bu funksiyaları vergi məsləhətçiləri də yerinə yetirə bilər».

Vergi məsləhəti xidməti - hüquqi və fiziki şəxslərə vergi xidmətinin beynəlxalq standartıdır və eyni zamanda, sahibkarlıq fəaliyyətinin bir növüdür. Vergi məsləhətçisi - vergi orqanı ilə vergi ödəyicisi arasında ixtisaslaşmış vasitəçidir, məcburi sığorta vasitəsilə üzərinə risk götürən vergi məsələləri üzrə ombudsmandır. Vergi məsləhətçilərinin vəzifəsinə vergi bəyannamələrinin tərtibi, müştərilərə məsləhət verilməsi və onların maraqlarının müdafiə edilməsi, sənədlərin rəsmiləşdirilməsi, vergi öhdəliklərinə riayət olunması zamanı və vergi hüquqpozmaları ilə bağlı işlərdə müştəriyə kömək göstərilməsi və s. daxildir.

## Xəbər lenti

**ABŞ** daxili Gəlirlər Xidməti (İRS) elan etmişdir ki, 2009-cu ildən bəri 54000 vətəndaş vergilərə aid informasiyaların könüllü açılması proqramına qoşulub və bunun sayəsində büdcəyə 8 milyard dollardan artıq vəsait daxil olub. Qeyd edilib ki, ABŞ vergi qanunvericiliyinə uyğunlaşmaq üçün 30000-dən artıq vergi ödəyicisi bəyannamələrin təqdim edilməsinin sadələşdirilmiş prosedurlarından istifadə edib.

**Hindistan** Milli Bankının direktoru Raqhuram Racan hökuməti vergi rejimində islahatlar aparmağa çağırmışdır. O, vergi siyasətinin də maliyyə-pul siyasəti qədər mühüm olduğunu vurğulayaraq bildirmişdir ki, ölkəsi investorlara cəlbedici şərait yaratmaq üçün vergi sistemini təkmilləşdirməli, daha şəffaf etməlidir.

**Bolqarıstan**da tezliklə çipsi, peçenye və digər «qeyri-sağlam» ərzaqlara qoyulan vergilər artırılaraq 78 faizə çatdırılacaq. Səhiyyə Nazirliyinin təklifində bildirilib ki, bu, əhalinin sağlamlığı üçün faydalı olmaqla yanaşı, dövlət büdcəsinə əlavə vəsaitlərin cəlb olunmasına da şərait yaradacaq.

**İrlandiya**da büdcə planının müzakirəsi zamanı ölkənin maliyyə naziri Maykl Nunan elan etmişdir ki, hökumət yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətləri stimullaşdırmaq üçün yeni vergi güzəştləri tətbiq etmək niyyətindədir. Hazırda İrlandiyada korporativ vergi dərəcəsi 12,5% təşkil edir, maliyyə nazirinin sözlərinə görə, «biliyin inkişaf etdirilməsi» sisteminin tələblərinə cavab verən şirkətlər üçün bu göstəricinin 6,25 faizə endirilməsi nəzərdə tutulmuşdur.

**Ümumdünya Ticarət Təşkilatı** ticarətin sadələşdirilməsi prosedurları ilə bağlı sənədin ratifikasiya olunmasından məmnunluğunu bildirmişdir. Ticarət proseslərinin sadələşdirilməsi barədə saziş ÜTT-nin bütün üzvləri üçün mal dövriyyəsinin sürətləndirilməsi, malların qeydiyyatı prosedurlarının sadələşdirilməsi, eləcə də üzv dövlətlər arasında gömrük əməkdaşlığının yaxşılaşdırılması barədə öhdəlik yaradır və dünya miqyasında ticarətdə vergi baryerlərinin azaldılmasına yol açır.

**Avropa İttifaqı** ərazisində kriptovalyuta (elektron pul) ilə aparılan maliyyə əməliyyatları ƏDV-yə cəlb edilməməli olduğu barədə məhkəmə qərar çıxarmışdır. Qərar çıxarılarkən Aİ qanunvericiliyinin valyuta mübadiləsinə vergi qoyulmasını qadağan etməsi əsas götürülmüşdür. Mütəxəssislər bunu elektron pulun bu və ya digər milli valyutaya həqiqi alternativ qəbul edilməsinin təsdiqi kimi qiymətləndiriblər.

Xarici ölkələrin təcrübəsi

# İspaniya Krallığının vergi sistemi: *fiziki şəxslərin gəlir vergisi*



***Güzəştlər***

Fərdi və ailə güzəştləri yekun vergi öhdəliyini azaldır. Fərdi güzəştin həcmi 6700 ABŞ dolları təşkil edir. Birgə bəyannamə təqdim edilərsə, ikinci şəxs üçün güzəştin həcmi 4420 dollardır. Yaşı 65-dən yuxarı olan şəxslər üçün müvafiq olaraq güzəştin həcmi 7900 və 5600 dollardır. Yaşı 75-dən yuxarı olan şəxslər üçün isə həmin güzəşt müvafiq olaraq 9350 və 7000 dollar təşkil edir.

Ailə güzəştinin həcmi himayədə olanların sayı, onların yaşı və gəlirlərinin həcmindən asılıdır. Yaşı 25 yaşdan aşağı olan və illik gəliri 10.400 dollardan yuxarı olmayan birinci uşaq üçün bu güzəşt 2390 dollar, ikinci uşaq üçün 2650 dollar, üçüncü uşaq üçün 4770 dollar, dördüncü uşaq üçün 5440 dollar təşkil edir. Bundan əlavə, 3 yaşadək və istənilən yaşda olan övladlığa götürülmüş uşağa görə övladlığa götürüldüyü il və ondan sonrakı iki il ərzində 2917 dollar həcmində güzəşt tətbiq edilir. Yaşı 65-dən yuxarı himayədə olan valideynlərin illik gəliri 10.400 dollardan artıq deyilsə, onlara 1200 dollar güzəşt tətbiq edilir. Yaşı 75-dən yuxarı olanlar üçün güzəşt 2650 dollar təşkil edir.

| Yaşı 25-dən aşağı olan və gəliri 10.400 ABŞ dollarından yuxarı olmayan uşaqlara görə tətbiq olunan ailə güzəştləri | |
|---|---|
| Ailənin 1-ci uşağına görə güzəşt | 2390 dollar |
| Ailənin 2-ci uşağına görə güzəşt | 2650 dollar |
| Ailənin 3-cü uşağına görə güzəşt | 4770 dollar |
| Ailənin 4-cü uşağına görə güzəşt | 5440 dollar |

***Ödəmə mənbəyində tutulan vergilər***

İspaniya mənbəyindən əldə edilən muzdlu iş, peşə fəaliyyəti, daşınan əmlakdan və kapital gəlirləri fiziki şəxs tərəfindən əldə olunursa, ödəmə mənbəyində verginin subyekti ola bilər. Ödəmə mənbəyində tutulmuş vergi cari ödəniş kimi hesab olunur və vergi ödəyicisinin yekun vergi öhdəliyində nəzərə alınır.

Rezident fiziki şəxs rezident müəssisədən əldə etdiyi dividend gəlirlərini ödəmə mənbəyində vergiyə cəlb olunmazdan əvvəl öz vergi tutulan gəlirlərinə daxil etməlidir. Ümumiyyətlə, ildə 1500 avroyadək dividend vergidən azaddır.

Rezident fiziki şəxslərdən əldə olunan faizlər və royalti tam şəkildə vergiyə cəlb edilir.

***Vergi bəyannamələrinin təqdim olunması***

Rezident fiziki şəxslər fərdi və ya birgə bəyannamə təqdim edə bilərlər. Eyni ailə birliyinin üzvləri olan rezident fiziki şəxslər ailə adından vahid birgə bəyannamə təqdim edirlər. Ailə birliyinə ər və arvad, onların 18 yaşa çatmamış uşaqları, eləcə də (əgər varsa) yaşından asılı olmayaraq, əlil övladları daxildir. Hüquqi cəhətdən boşanmış və ya nikah olmadan birlikdə yaşayanlar üçün ailə birliyinə ata, ana və onlardan biri ilə yaşayan uşaqlar daxildir. Birgə bəyannamə təqdim edilərkən gəlirlərin bölünməsinə yol verilmir. Vergi bəyannamələri vergi orqanı tərəfindən müəyyən olunmuş şəkildə, vaxtında (adətən, iyunun 30-dək) və hər il müəyyən edilən forma üzrə təqdim olunmalıdır.

***Verginin ödənilmə müddəti***

Fərdi sahibkarlar və peşə sahibləri cari ildə rüblük vergi bəyannamələrini təqdim edib 20 aprel, 20 iyul, 20 oktyabr tarixlərinədək cari ödənişlər etməli və növbəti ilin 30 yanvar tarixinədək cari il üzrə yekun vergi öhdəliyini tam ödəməlidirlər.

Öz xalis gəlirlərinin hesablanmasını birbaşa metodla aparan fərdi sahibkarlar və peşə sahibləri üçün cari ödəniş həmin il əldə olunan gəlir və eyni ildə çəkilmiş xərclərin fərqinin 20%-i hesablanmaqla bu məbləğdən əvvəlki rüblərdə ödənilmiş cari vergi məbləği və sözügedən rübdə ödəmə mənbəyində ödənilmiş vergilər çıxılmaqla hesablanır.

Öz xalis gəlirlərini obyektiv metodla hesablayan fərdi sahibkarlar üçün cari vergi məbləğləri hər hansı iqtisadi sahənin rentabelliyinin 4%-ni təşkil edir. Hesablanmış bu məbləğdən ödəmə mənbəyində tutulmuş vergilər çıxılır. Əgər fərdi sahibkarın işçiləri olarsa, qeyd olunan 4% azaldıla bilər.

Peşə sahiblərinin əvvəlki vergi ilində peşə gəlirlərinin ən azı 70%-i ödəmə mənbəyində vergiyə cəlb olunmuşdursa, bu cür şəxslər cari ödənişlər etmək məcburiyyətində deyillər.

Ümumi qaydalara uyğun olaraq, vergi öhdəliyinin özünüqiymətləndirmə metodu ilə hesablanması məcburidir. Gəlir vergisi üzrə illik bəyannamə və ödənilməli olan vergilər növbəti ilin 1 may - 30 iyun tarixləri arasında təqdim olunub ödənilməlidir.

Vergi ödəyicisindən ödəmə mənbəyində tutulmuş və ya cari ödənişlər şəklində qəbul edilmiş məbləğ yekun vergi öhdəliyindən çox olarsa, artıq məbləğ qaytarılır.



*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Çində yaranmış, daha sonra bütün dünyada məşhurlaşmış döyüş növü. «İnsan nailiyyəti» kimi tərcümə olunur; 2.Kəmdişlilərə aid heyvan dəstəsi; 3.Rusiya Federasiyasının Pskov vilayətində çay; 4.Natiq; 5.Avropada ada dövlət; 6.Respublikamızda rayon; 9.Türk-monqol mifologiyasında cəza tanrısı, dağ silsiləsi; 13.Üç muşketyordan biri; 15.Təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil, mühasibat uçotu aparan şəxs; 16.Şahmat oyununun ilk mərhələsi; 17.Hər hansı bir məlumatı, xəbəri, komandanı uzağa ötürmək üçün şərti səs və ya işıq işarəsi; 18.Ftorun digər elementlərlə kimyəvi birləşməsi; 20.Sərinləşdirici içki, süd məhsulu; 21.Məqsəd, amal. **Soldan sağa:** 1.Musiqi aləti, fortepianonun əcdadı hesab edilir; 5.İdarəetmədə magistr ixtisas dərəcəsi, ingilis dilindən alınmış qısaltma; 7.Qədim sikkələri və medalları yığan və tədqiq edən mütəxəssis; 8.Əsasən Azərbaycanın şimalında və cənubunda yarıköçəri (yaylaq-qışlaq) maldarlıqla məşğul olan sosial zümrə; 10.Yunan mifologiyasında Krit hökmdarı; 11.Paytaxtımızın Yasamal rayonunun SSRİ dövründəki adı; 12.Yaradıcılıq zamanı özünü göstərən ruhlanma halı, yaradıcı fikrin yüksəlişi; 14.Türk və monqollarda tayfa birliyi forması; 19.Azərbaycanın futbol tarixində silinməz izlər qoyan futbolçunun adı. Hücumçu, məşqçi, «Neftçi»nin kapitanı, SSRİ-nin əməkdar idman ustası; 21.Çar Rusiyasında qapalı orta hərbi məktəb müdavimi; 22.Pul vəsaiti və ya natural formada alınan aktiv, habelə hər hansı iqtisadi subyekt qarşısında icra olunmamış öhdəlik; 23.Müəssisəyə və idarəyə məxsus avadanlığın, ləvazimatın və s.-nin məcmusu; 24.Metrik ölçü sistemində 1000 kiloqrama bərabər çəki vahidi; 25.Rusiyada şəhər və vilayət.



*«D'Artanyan və üç muşketyor» filmindən epizod. Venyamin Smexovun canlandırdığı obraz*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kondor; 2.Nuriyyə *(Əhmədova)*; 3.Rakel; 4.Beluxa; 5.Ağlay; 6.Tolkin *(Con Ronald Ruel)*; 9.Amal; 13.Gəbə; 15.Assorti; 16.Marduk; 17.Stirol; 18.Tamtam; 20.Nübar; 21.Kofta. **Soldan sağa:** 1.Kontrabas; 5.Akt; 7.Nartkala; 8.Əlil; 10.Oryol; 11.Xomeyni; 12.Cəngi; 14.Elxan *(Cəfərov)*; 19.Alnabat ; 21.Kasta; 22.Dəbə; 23.Trafaret; 24.Kür; 25.Palladium.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14000

## idman

# Federasiya kuboku uğrunda turnir başa çatıb



Azərbaycan Velosiped İdmanı Federasiyasının 2015-ci ildəki təqvim-planına uyğun olaraq, Dağ Velosipedi Parkında açıq federasiya kuboku yarışlarının sonuncu - üçüncü mərhələsi keçirilib. Yarışda peşəkar idmançılarla yanaşı, həvəskar dağ velosipedçiləri də iştirak ediblər.

Reqlamentə əsasən, elit, U-23 və gənclər kateqoriyasında mübarizə aparan iştirakçılar 2,1 kilometrlik marşrut üzrə 7, U-17 yaş qrupunun velosipedçiləri 5, 15 yaşadək idmançılar isə 3 dövrə vurublar. Ümumilikdə 50-dən artıq idmançının iştirak etdiyi yarış maraqlı idman mübarizəsi şəraitində keçib.

Yarışın yekununda 15 yaşlı velosipedçilər arasında İxtisaslaşdırılmış Uşaq-Gənclər Məktəbinin nümayəndəsi Qadir Mustafayev finiş xəttini birinci keçib. Amma üç mərhələnin yekununa əsasən, onun komanda yoldaşı Osman Qəhrəmanov Federasiya kubokunun qalibi adını qazanıb. U-17 yaş qrupunda «Lokomotiv»in nümayəndəsi Musa Mikayılzadə də bu mərhələni qalib kimi başa vursa da, bu, ona yekun sıralamada birinci olmaq üçün kifayət etməyib. Həmin yaş qrupunda İxtisaslaşdırılmış Uşaq-Gənclər Məktəbinin velosipedçisi Samir Şıxəlizadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Elit, U-23 və gənclər arasında yarışda isə gözlənildiyi kimi, İxtisaslaşdırılmış Uşaq-Gənclər Məktəbindən Aqşin İsmayılov bu mərhələdə hamıdan güclü olub. Amma üç mərhələnin yekunçusu Orxan Məmmədov Federasiya kubokunu başı üzərinə qaldırıb.

Fərqlənən idmançılar medal, diplom, kubok və pul mükafatı ilə təltif ediliblər.

# Çempion oldu, «Rio 2016»ya vəsiqə qazandı

Azərbaycan Milli Paralimpiya Komitəsinin atletika idman növü üzrə idmançısı Kamil Əliyev Qətərin Doha şəhərində keçirilən lisenziya xarakterli dünya çempionatında uzunluğa tullanmada 7.13 metr nəticə göstərərək çempion adına layiq görülüb. Bununla da o, «Rio de Janeyro-2016» Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya qazanıb.

# Əfsanəvi güləşçinin xatirəsinə...




Oktyabrın 26-da Bakı İdman Sarayında yeniyetmələr arasında respublika seçim turnirinin final mərhələsi start götürüb. Əfsanəvi güləşçi, Helsinki Olimpiya Oyunlarının gümüş mükafatçısı Rəşid Məmmədbəyovun xatirəsinə həsr olunan turnirin ilk günündə xalça üzərində yunan-Roma güləşi üzrə 42, 46, 50, 54, 58 və 63 kiloqram çəki dərəcələrində 120 yeniyetmə pəhləvan mübarizə aparıb.

Turnirdə Azərbaycanın bütün bölgələrindən olan güləşçilər, həmçinin İran və Bolqarıstandan olan pəhləvanlar da gücləri sınayırlar. İlk üç yeri tutan idmançılar medal və diplomlarla, həmçinin pul mükafatı ilə təltif olunacaqlar. Qalib və mükafatçılar yığma komandaların heyətinə cəlb ediləcək və beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək hüququ qazanacaqlar.

# Sınaq xarakterli turnirdə qələbə

Estoniyanın Kohtla-Yarve şəhərində aerobika gimnastikası üzrə açıq kubok turniri başa çatıb. Noyabrın 7-8-də Portuqaliyanın Elvas şəhərində keçiriləcək Avropa çempionatı öncəsi sınaq xarakteri daşıyan bu turnirdə yığma komandamız Belarus təmsilçiləri ilə yarışıblar. Azərbaycan yığması həm fərdi, həm cütlük, həm də qrup yarışlarında rəqiblərini məğlub edərək hər üç kateqoriyada kuboka sahib olub. Komandamızın bu uğurunda Vera Bosıx, Aynur Cabbarlı, Elçin Məmmədov, Timur Ələkbərov və Vladimir Dolmatov mühüm rol oynayıblar.

# «Kral klubu» rekordlarını sıralayır

Madridin «Real» komandası son üç ildə UEFA Çempionlar Liqasının qrup mərhələsində keçirdiyi 18 oyunda məğlubedilməzlik seriyasını uğurla davam etdirir.

«Kral klubu»nun rəsmi saytının yaydığı xəbərə görə, «Real» Çempionlar Liqasının qrup mərhələsində sonuncu dəfə düz üç il bundan əvvəl - 2012-ci il oktyabrın 24-də Almaniyada Dortmundun «Borussiya» komandasına uduzub (1:2). Madrid təmsilçisi həmin oyundan sonra keçirdiyi 18 görüşün 14-nü qələbə ilə başa vurub, dördündə isə heç-heçə edib. Bu göstərici üzrə ikinci sırada «Portu» qərarlaşıb (9 oyun).

## mozaika

rekordlar



# «Rekordçu» balqabaq 856

İsveçrəli fermer Beni Meyer 856 kiloqram ağırlığında balqabaq yetişdirərək rekorda imza atıb. O, bu il bütün rəqiblərini geridə qoysa da, öz rekordunu yeniləyə bilməyib. 2014-cü ildə Beni Meyer çəkisi 1 tondan artıq olan balqabaq yetişdirmişdi. Nəhəng tərəvəz Almaniyanın Lyudviqsburq şəhərində ənənəvi fermer yarışmasında nümayiş etdirilib. Sözün bütün mənalarında ən məhsuldar fermer titulunu qorumağa müvəffəq olan isveçrəli oktyabr ayının əvvəllərində altıncı dəfə ölkə müsabiqəsində də qalib gəlib.

Nəhəng balqabağı öz gözləri ilə görmək istəyənlər bunu noyabrın 8-dək Lyudviqsburq şəhərində gerçəkləşdirə bilərlər. Təəssüf ki, insanlara rekord çəkiyə malik tərəvəzi yemək tövsiyə olunmur. Buna baxmayaraq, nəhəng balqabağın toxumları satışa çıxarılacaq, özü isə yem kimi heyvanlara veriləcək.

tədqiqat

# Siqaretdən də ziyanlı...

Dünya Səhiyyə Təşkilatının (DST) nümayəndələri tədqiqatlar nəticəsində qərara gəliblər ki, doyunca yatmamaq insan orqanizmə siqaret çəkməkdən daha çox ziyan vurur, insult və ya infarkt keçirmək ehtimalını artırır. Alimlərin fikrincə, insanlar yuxuya ayrılan vaxta məsuliyyətlə yanaşmalıdırlar.

25-64 yaş arasında 650-dən çox kişinin 11 il ərzində yatmasını araşdıran alimlər aşkar ediblər ki, ürək-damar sistemində problemi olan iştirakçıların təqribən 63 faizi doyunca yatmayanlardır. Buna əsaslanaraq, mütəxəssislər bütün insanlara sutkada 8-10 saatdan az yatmamağı məsləhət görürlər. Həfta 30 dəqiqə az yatmaq da gələcəkdə problem yarada bilər. Bundan başqa, doyunca yatmamaq insanda piylənmənin inkişafına əsas səbəbdir.

faydalı

# Evdə lazım olar

Azərbaycan torpağının nadir nemətlərindən biri də şabalıddır. Ölkəmizdə Şəki-Zaqatala zonası şabalıd bağları ilə məşhurdur. Şabalıd həm də süfrələrimizin əvəzsiz nemətidir. Onu əsasən qızardır və ya qovururlar.

- Şabalıdı qovurmaq heç də çətin deyil.
- Şabalıdların üst hissəsində dərin, xaç şəklində kəsik açılır.
- Onları bir qaba qoyub əvvəlcədən 200°C temperaturda qızdırılmış sobada 20-30 dəqiqə bişirmək lazım gəlir. Sobada bişmə zamanı şabalıdın üst hissəsi partlayır və içərisi yumşalır.
- Hazır şabalıdlar soyudulur və təmizlənir.
- Şabalıda duz vurmaq lazım deyil, çünkü bu zaman onun üzərində ağ rəngdə ərp əmələ gəlir.
- Qovrulmuş şabalıd müxtəlif xörəklərdə istifadə edilir. Arzulayan çərəz kimi də yeyə bilər...

tarixdə bu həftə

# 24 oktyabr – BMT-nin yaradıldığı gündür

Düz 70 il əvvəl Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi qüvvəyə minib və 1948-ci ildən indiyədək oktyabrın 24-ü BMT günü kimi qeyd edilir. 1945-ci ildə yaradılan və hazırda 192 ölkənin üzv olduğu bu quruma müstəqil dövlətlərdən yalnız Vatikan daxil deyil.

BMT İkinci dünya müharibəsindən sonra, beynəlxalq sülhün təhlükəsizliyinin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı və sosial tərəqqiyə yardım, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılıb. BMT «ailəsi» aşağıdakı qurumlardan ibarətdir: Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Hamilik Şurası, Beynəlxalq Məhkəmə və Katiblik. Onların Haaqada (Niderland) yerləşən Məhkəmədən başqa hamısı Nyu-Yorkda, BMT-nin mərkəzi idarələrində yerləşir.

Təhlükəsizlik Şurasının beş daimi üzvü vardır: Böyük Britaniya, Çin, Rusiya (SSRİ-nin varəsi kimi), ABŞ, Fransa. Təhlükəsizlik Şurasına, eyni zamanda, Baş Assambleyada təkrar seçilməyə buraxılmayan və iki il müddətinə seçilmiş on qeyri-daimi üzv daxildir. Onlardan beşi Afrika və Asiyadan, biri Şərqi Avropadan, ikisi Latın Amerikasından, ikisi Qərbi Avropadan, həmçinin Avstraliya, Kannada da daxil olmaqla, digər regionlardan seçilir.

**Qeyd:** BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilmiş 46-cı sessiyasında Azərbaycanın bu təşkilata üzv olması ilə bağlı qətnamə qəbul edilib. BMT Nizamnaməsinin qüvvəyə mindiyi gündən 66 il sonra - 2011-ci il oktyabrın 24-də isə Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. Azərbaycan Prezidenti İlham Əliyevin bu münasibətlə çıxışında qeyd etdiyi kimi: «BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz tarixi bir hadisə, gənc, müstəqil dövlət kimi böyük diplomatik və siyasi uğurumuzdur». Bu, Azərbaycan dövlətinin beynəlxalq aləmdə gününün və onun liderinin artan nüfuzunun bariz nümunəsi kimi qiymətləndirilməlidir.

texnologiya

# Yeni enerji mənbəyi

Kanadanın Monreal şəhərindəki Konkordiya Universitetinin alimləri yosunların tənəffüs və fotosintezindən istifadə olunmaqla elektrik enerjisi istehsal edən yeni texnologiya kəşf ediblər. Universitetin optik biomikrosistem laboratoriyasının mütəxəssislərinin yaratdıqları mikro-fotosintetik hüceyrə günəşdən alınan enerjini elektrik enerjisinə çevirir.

«Technology» jurnalında yayımlanan araşdırmaya görə, mikro-fotosintetik hüceyrə texnologiyası günəş enerjisindən daha yaxşı faydalanmaq üçün yaradılan texnologiyalardan biridir. Alimlərin fikrincə, günəşin yer kürəsinə bir saatda göndərdiyi enerji dünyadakı insanların bir ildə istehlak etdiyi elektrik enerjisindən daha çoxdur. Bunun üçün də alimlər yaratdıqları yeni sistem və texnologiyaları inkişaf etdirərək günəş enerjisindən daha çox faydalanmanı təmin etməyə çalışırlar.



Fotosintetik güc hüceyrəsi anod, katod və proton dəyişmə pərdəsindən meydana gəlir. Hüceyrənin anod qismi bakteriyalardan yaranır və bakteriyalar elektronları katodtan elektrod səthə köçürür. Yeni texnologiya üzrə hər bir hüceyrə 993 meqavolt açıq dövrə gərginliyi və 36,23 W/sm$^2$ güc sıxlığı istehsal edə bilər.

## Müdriklər deyib ki...



*«İki cür adam dünyadan həsrət gedir: yığıb yeməyən və bilib eləməyən».*

*Sədi Şirazi*